QARABAĞ AZƏRBAYCANDIR!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 235 (6199) 30 dekabr 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# İlham Əliyev: Qarabağımızı ən qısa zamanda əsl cənnətə çevirəcəyik



Bax 2

## Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə hərbi qulluqçularımız üçün dəstək aksiyası davam etdirilir

Hadrutdan reportaj



Bax 4

## 2021-ci ilin büdcə zərfinə daxil olan qanunlar Milli Məclisdə üçüncü oxunuşda qəbul olunub

Dekabrın 29-da Milli Məclisin sədri Sahibə Qafarovanın sədrliyi ilə parlamentin növbəti plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Baş nazir Əli Əsədov və hökumət...



Bax 6

## FOTOFAKT: Rusiyanın rəsmi xəbər agentlikləri “dqr”in təbliğatı ilə məşğuldur




Bax 10

Bu fakt tərəfsizliyi şübhə altında qoymaqla yanaşı, imzaya hörmətsizlik və öhdəliyə götürülmüş vəzifənin icra edilə biilinməməsi kimi qiymətləndirilə bilər! Qondarma və quldur “dqr” rejiminin Rusiya sülhməramlılarının nəzarətində qalan hissəsində “təhlükəsizlik şurasının sədri” vəzifəsinə təyin olunmuş...

## “Sərt karantin rejimi gələn il davam edərsə, 190 manat müavinətin məbləğinə baxıla bilər”

Azərbaycanda koronavirusla bağlı verilən 190 manatın gələn il üçün müyyən 196 manat məbləğində yaşayış minimuna çatdırılması məsələsinə hökumətdə baxıla bilər. SİA-nın məlumatına görə, bunu Əmək və Əhalinin...



Bax 7

## Maksim Şevçenko: “Ermənilər müharibəyə hazırlaşır, sülhməramlılar problem yaradır”

Bax 7



Rusiya Dövlət Dumasının keçmiş deputatı, nüfuzlu rus politoloq və ictimai xadim Maksim Şevçenko Qarabağda ermənilər tərəfindən törədilən təxribatları və Rusiya sülhməramlılarının sayının 10 minə çatdırılması haqda təklifləri sərt tənqid edib. Şevçenko Qarabağda hər hansı sülhməramlı misisyanın lazım olmadığını, orada təhlükəsizlik tədbirlərini Azərbaycan hüquq-mühafizə orqanlarının...

### Sarkisyanın etirafları: Ermənistanın yalnız bir xilas yolu var



Bax 11

### VİDEOFAKT: Vitali Balasanyanın Allahverdi Bağırovla şok videosu üzə çıxdı!



Bax 12

### Fransa parlamentarilərinin öz gözündə tiri görməməsi böyük faciədir



Bax 13

# İlham Əliyev: Qarabağımızı ən qısa zamanda əsl cənnətə çevirəcəyik



**Prezident İlham Əliyev dünya azərbaycanlılarına təbrik ünvanlayıb. Təbrikdə deyilir: Əziz həmvətənlər!**

Hörmətli soydaşlar!

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə sizi ürəkdən təbrik edir, hər birinizə səmimi arzu və diləklərimi çatdırıram.

2020-ci ili bütün dünyada koronavirus pandemiyası ilə gərgin mübarizə şəraitində başa vururuq. Yaranmış vəziyyətdən minimum itkilərlə çıxmaq üçün Azərbaycan hökuməti ilk günlərdən ardıcıl tədbirlər həyata keçirmişdir. Bu addımlar, habelə Azərbaycanın köməyə ehtiyacı olan dövlətlərə humanitar yardımları Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən yüksək qiymətləndirilmişdir.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın təşəbbüsü ilə hər iki təsisatın COVID-19-a qarşı mübarizəyə həsr olunmuş videoformatda Zirvə görüşü baş tutmuşdur.

Cari ilin dekabr ayında Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü əsasında və 150-dən artıq dövlətin dəstəklədiyi BMT Baş Assambleyasının koronavirusa qarşı dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyası keçirilmişdir. Bu, Azərbaycanın qlobal proseslərdə fəal iştirakının, ölkəmizə olan hörmətin, beynəlxalq dəstəyin əyani göstəricisidir.

Ermənistanın danışıqlar prosesini sarsıdan təhrikçi açıqlamaları və əməlləri, iyul ayında dövlət sərhədinin Tovuz istiqamətində törətdiyi hərbi təxribat, qoşunlarını təmas xəttinə cəmləşdirməsi, terror əməllərini törətmək üçün diversiya qruplarını göndərməsi onun növbəti çirkin niyyətlərindən xəbər verirdi. Bu ilin sentyabr ayında BMT Baş Assambleyasının 75-ci sessiyası zamanı beynəlxalq ictimaiyyət Ermənistanın yeni müharibəyə hazırlaşması barədə xəbərdar edilmişdir.

Sentyabrın 27-də Ermənistanın ölkəmizə qarşı törətdiyi hərbi təcavüzə cavab olaraq Azərbaycan xalqı Vətən müharibəsinə qalxmışdır. Müzəffər Azərbaycan Ordusu hər anı qəhrəmanlıqlarla dolu 44 gün ərzində düşməni ağır məğlubiyyətə uğratmış və ölkəmizin ərazi bütövlüyünü bərpa etmişdir. Milli dövlətçilik tariximizdə və xalqımızın yaddaşında əbədi yaşayacaq şanlı Zəfər xalq-iqtidar birliyi, ordumuzun yüksək peşəkarlığı və gərgin siyasi-diplomatik fəaliyyət sayəsində əldə edilmişdir.

Ordumuzun ərazi-relyef baxımından son dərəcə mürəkkəb şəraitdə və qısa müddətdə həyata keçirdiyi "Dəmir yumruq" əməliyyatı dünya hərb tarixinə düşərək aparıcı hərbi mərkəzlər və mütəxəssislər tərəfindən öyrənilir.

Dekabrın 10-da Bakının Azadlıq meydanında keçirilmiş möhtəşəm Zəfər paradı Azərbaycan dövlətinin siyasi, iqtisadi və hərbi qüdrətini, xalqımızın iradəsini, ordumuzun qələbə əzmini, əsgər və zabitlərimizin sarsılmaz döyüş ruhunu nümayiş etdirmişdir.

Xalqımıza milli qürur və şərəf hissini, qələbə sevincini yaşadan, üçrəngli bayrağımızı işğaldan azad olunmuş torpaqlarımızda, Qarabağın tacı olan müqəddəs Şuşada dalğalandıran müzəffər ordumuzun bütün şəxsi heyətinə bir daha dərin minnətdarlığımı bildirirəm. Şəhidlərimizin ölməz ruhu qarşısında baş əyərək onlara Allahdan rəhmət diləyir, yaralı hərbçilərimizin tezliklə şəfa tapmasını arzulayıram.

Vətən müharibəsi zamanı Azərbaycan beynəlxalq informasiya məkanında öz sözünü deyərək ölkəmizə qarşı aparılan dezinformasiya kampaniyalarının qarşısını almış, Ermənistanın vandalizmini və mülki insanlara qarşı terror siyasətini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmışdır.

Ermənistanın işğalı və vəhşiliyi nəticəsində başdan-başa dağıdılmış doğma Qarabağımızı əminəm ki, biz ən qısa zamanda əsl cənnətə çevirəcəyik.

Müqəddəs Vətən müharibəsi zamanı xaricdə yaşayan soydaşlarımızın düşmənin və anti-Azərbaycan dairələrin məkrli təxribatlarına qarşı cəsarətli etirazları, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində fədakar xidmətləri Qələbəmizə layiqli töhfə olmuşdur.

Əziz həmvətənlər!

Doğma Azərbaycanımızın daha da güclənməsi və çiçəklənməsi naminə fəaliyyətinizdə hər birinizə uğurlar arzulayıram.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Laçının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Ağdamın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

## Mövlud Çavuşoğlu: Rəcəb Tayyib Ərdoğan və Vladimir Putin gələn il Türkiyədə görüşə bilərlər



Rusiyanın xarici işlər naziri Sergey Lavrov və Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Soçidə Rusiya-Türkiyə Birgə Strateji Planlaşdırma Qrupunun 8-ci iclasında iştirak edirlər. AZƏRTAC xəbər verir ki, nazirlər görüşün əvvəlində çıxış ediblər.

Sergey Lavrov qeyd edib ki, tərəflər Yüksək Səviyyəli Əməkdaşlıq Şurasının növbəti iclasında baxılması üçün təqdim olunacaq məsələlərin geniş dairəsi üzrə danışıqlar aparacaqlar. O deyib ki, bu il pandemiyaya baxmayaraq, Rusiya və Türkiyə prezidentləri çox sıx əlaqədə olublar. Bu, həm ikitərəfli gündəlik, həm də regional və beynəlxalq məsələlərlə bağlı olub.

Mövlud Çavuşoğlu, öz növbəsində, gələn il Türkiyədə Rəcəb Tayyib Ərdoğanla Vladimir Putinin görüşünün keçirilə biləcəyini qeyd edib, rusiyalı həmkarı ilə bununla bağlı hazırlıq məsələlərini də müzakirə edəcəyini bildirib.

Nazir Ankaranın Moskva ilə sıx dialoqundan və ticarət, mədəniyyət, turizm, energetika sahələrində fəal əməkdaşlığından məmnun olduğunu vurğulayıb. O, həmçinin xatırladıb ki, gələn il Türkiyə ilə Rusiya arasında diplomatik münasibətlərin qurulmasının 100 illiyi qeyd olunacaq. Strateji Planlaşdırma Qrupunun iclasının mövzuları, ənənəvi olaraq, ikitərəfli əməkdaşlığın aktual məsələləri və regional problemlərdən ibarət olur. Bu dəfə iclasda Azərbaycan, Rusiya və Ermənistan liderlərinin üçtərəfli Bəyanatının icra olunmasına, humanitar yardım məsələlərinə xüsusi diqqət yetiriləcəyi gözlənilir.

## Yunanıstan portalı ermənilərin Qarabağda törətdiyi bəşəri cinayətlərdən yazıb




Yunanıstanın www.karfitsa.gr xəbər portalında Ermənistanın Qarabağda törətdiyi bəşəri cinayətlərlə bağlı məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, azərbaycanlı jurnalist Əli Zülfüqaroğlunun və tədqiqatçı-ekspert Elnur Eltürkün həmmüəllifliyi ilə yayılan məqalədə Vətən müharibəsi zamanı Ermənistanın mülki əhaliyə qarşı törətdiyi terror aktlarından bəhs edilir. Həmçinin Ermənistanın Azərbaycanın Gəncə, Bərdə və digər şəhərlərinə raket zərbələri endirməsi nəticəsində uşaqlar və qadınlar da daxil olmaqla, mülki əhalinin qətlə yetirildiyi, yaşayış evlərinin və digər obyektlərin dağıdıldığı yunan oxucuların diqqətinə çatdırılır. Yazıda müharibə bitəndən, Ermənistan kapitulyasiyaya imza atandan sonrakı dönəmdə ermənilərin boşaltdıqları rayonlarda evləri yandırmaları, heyvanları vəhşicəsinə öldürmələri, meşələrə od vurmaları, talançılıq, ekoloji terror törətmələri ilə bağlı faktlara da geniş yer verilir.

Məqalədə Ermənistanın təcavüzü nəticəsində Dağlıq Qarabağ və ona bitişik rayonlarda dünya və yerli əhəmiyyətli tarixi abidələrin, muzeylərin soyğuna məruz qalması, dağıdılması, infrastruktura ciddi zərər vurulması, məktəblərin, xəstəxanaların yerlə-yeksan edilməsi, yaşayış evlərinin sökülərək materiallarının Ermənistana daşınması diqqətə çatdırılır. Eyni zamanda, qeyd olunur ki, Ermənistanın hərbi təcavüzü nəticəsində dəyən maddi ziyanın məbləği ilkin hesablamalara görə 800 milyard dollardan çoxdur, bu rəqəm getdikcə artır və Ermənistan buna görə təzminat ödəməlidir.

"Bunlar təkcə Azərbaycana qarşı deyil, bəşəriyyətə qarşı yönəlmiş terror aktlarıdır. Bu gün dünyada çoxsaylı münaqişə ocaqları mövcuddur. Bu səbəbdən də Ermənistanın mülki əhaliyə və ekoloji mühitə qarşı törətdiyi bu terror aktı çox təhlükəli tendensiyadır. Ona görə də bu cür vəhşiliklərin davam etməməsi, digər yerlərdə də presedent yaratmaması üçün beynəlxalq ictimaiyyət, xüsusilə xarici media qurumları buna biganə qalmamalıdır", - deyə yazıda vurğulanır.

***Rusiyanın nüfuzlu "Vedomosti" qəzetinin "İlin siyasətçisi" kateqoriyasında keçirilən səsvermə-sorğusuna əsasən bu ada Azərbaycan Prezidenti İlham Əliyev layiq görülüb. Qeyd edək ki, "İlin siyasətçisi" nominasiyasındakı qısa siyahıya Rusiya prezidenti Vladimir Putin, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, ABŞ-ın yeni prezidenti Con Bayden, Belarus prezidenti Aleksandr Lukaşenko və Fransa prezidentinin də adları yer alıb.***



# İlham Əliyev- Azərbaycan xalqını dəmir yumruq kimi birləşdirən lider!

*"Vedomosti" qəzetinin "İlin Siyasətçisi" sorğusunun nəticələri bu reallığın bariz sübutudur*

Prezident İlham Əliyevin rəhbərliyi ilə daxili və xarici siyasətdə mühüm uğurlar qazanan, regionda və dünyada nüfuzu artan Azərbaycanın inkişaf modelinə beynəlxalq maraq artmaqdadır. Azərbaycanın inkişafı ölkə vətəndaşlarının rifah halının yüksəlməsi ilə bərabər, həm də regional və qlobal əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, dünyanın nüfuzlu ekspertləri, siyasi xadimləri, ayrı-ayrı nəşrlər Prezident İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasəti yüksək qiymətləndirirlər.

Xüsusilə də, Azərbaycan tarixinə yeni missiya ilə - "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" deyərək ictimai fəaliyyətə başlayan Prezident İlham Əliyevin hələ 2003-cü ildə söylədiyi "Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam, hər bir Azərbaycan vətəndaşının qayğı və problemlərinin həlli yolunda bütün bacarıq və qabiliyyətimi əsirgəməyəcəyəm" fikirləri ilə real məzmun kəsb etməyə başladı. Sentyabrın 27-də faşist Ermənistanın növbəti təxribatından və onların bütün cəbhə boyu yaşayış məntəqələrimizi artilleriya qurğularından atəşə tutmasından dərhal sonra şanlı ordumuzun əks hücumu nəticəsində başlanan Vətən Müharibəsi Ali Baş Komandanımızın diplomatie siyasəti, Güclü Ordumuzun və rəşadətli əsgər və zabitlərimizin igidliyi ilə düz 44 gün ərzində 30 il işğal altında olan həsrətində olduğumuz torpaqlarımız özümüzə qaytarıldı. Bu xalq-iqidar-ordu birliyinin, xalqın, ordunun öz Liderinə inamının qələbsidir. Çünki Ali Baş Komandanın apardığı diplomatik siyasəti düzgün siyasətdir, ölkə Prezidentimizin uğurlu siyasəti haqq işidir!. Və Ordumuzun uğurları hər bir azərbaycanlında sevinc və sonsuz qürur hissi yaşadır. Dövlət başçımızın dediyi kimi "Qarabağ bizim doğma dədə-baba torpağımızdır, bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və bu gün bizim mübarizəmiz haqq mübarizəsidir!".

Bizim yumruğumuz bizim birliyimizdir.

Bəli, bu Azərbaycan Prezidenti İlham Əliyev Cənablarının əsl siyasətidir.

### Həm hərb meydanda, həm də danışıqlar masasında - Prezident İlham Əliyev qətiyyəti!

Güclü ölkənin güclü, qətiyyətli lideri də güclü olur. Böyük mütəfəkkir Viktor Hüqo vaxtilə yazırdı: "Əsl Liderin ömrünün yarısı Vətənə, digər yarısı da xalqa xidmət etməkdən ibarətdir".

Dövlətimizin başçısı İlham Əliyevin istər yerli televiziya kanallarına və mətbuatına, istər xarici mteleviziya kanallarına və mətbuatına, istəsə də xalqa müraciətlərində səsləndirdiyi hər bir bəyanatda 30 ilə yaxın müddətdə dünya dövlətlərinin siyasi iradə ortaya qoymamalarının yol açdığı sual doğuran və dəqiq cavabını axtaran məqamlar öz əksini tapıb. Real həqiqətlər bir daha bu gerçəkliyə işıq salır ki, zaman keçdikcə baş verən hadisələrin mahiyyəti daha dərindən dərk olunur, haqqın, ədalətin maraqların arxasında necə əridiyi aydın görünür. Bu gün dünyaya edilən "həqiqətə həqiqət gözü ilə baxaq" çağırışı ermənilər və onların havadarlarını narahat etsə də, unudulmamalıdır ki, beynəlxalq hüquq normaları və prinsipləri deyilən məfhum mövcuddur ki, onlara böyüklüyündən, kiçikliyindən asılı olmayaraq bütün dövlətlər əməl etməli, yanaşmalarında əsas götürməlidirlər.

Prezident Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqa müraciətində öz mövqeyini birmənalı şəkildə bildirərək dedi: "Desin ki, mən Azərbaycanın ərazi bütövlüyünü tanıyıram, necə ki, baza prinsiplərində bu, təsbit edilib. Desin ki, mən işğal edilmiş torpaqlardan qoşunlarımızı çıxaracağam, necə ki, baza prinsiplərində bu, təsbit edilib. Desin ki, mən Azərbaycan xalqından üzr istəyirəm və desin ki, Qarabağ Ermənistan deyil. Sonuncu şərt budur ki, qrafik versin, işğal edilmiş torpaqlardan erməni silahlı qüvvələrinin çıxarılması cədvəli verilsin bizə. Onda biz əlbəttə ki, atəşkəs rejimini bərpa edəcəyik".

### İqor Korotçenko: "İlham Əliyevin dünya miqyasında siyasətçi olduğunu qəbul etmək lazımdır"

"Azərbaycan Prezidenti İlham Əliyevin "Rossiya 1" telekanalında yayımlanan "60 dəqiqə"də çıxışı çox güclü idi. Prezidentin çıxışında yüksək dəqiqlik, ardıcıllıq, məntiqlilik və əminlik vardı". Bunu rusiyalı hərbi ekspert, "Milli müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko deyib. Rusiyanın ən çox baxılan siyasi tok-şousunda Azərbaycan Prezidentinin Dağlıq Qarabağ münaqişəsi regionunda baş verənlər, münaqişənin yenidən alovlanmasının səbəbləri və Ermənistan tərəfinin yalan və təxribatçı addımları ilə bağlı Rusiya ictimaiyyətini məlumatlandırdığını bildirən hərbi ekspert İlham Əliyevin dünya miqyasında siyasət adamı olduğunu vurğulayıb: "Rusiyalı izləyicilər, siyasi ekspertlər İlham Əliyevin çıxışını erməni rəqibi Nikol Paşinyanla müqayisə edərkən gördülər ki, Azərbaycan Prezidenti erməni həmkarından bir baş yox, deyərdim iki baş yuxarıda idi. MQİMO (Moskva Dövlət Beynəlxalq Əlaqələr Universiteti-red.) məktəbi hiss olunurdu. Sözsüz ki, Rusiya cəmiyyətində Azərbaycan Prezidenti barədə ümumi rəy var. Bu rəy İlham Əliyevin dünya miqyasında siyasətçi olmasından ibarətdir. Bunu qəbul etmək lazımdır. Dünən milyonlarla rusiyalı İlham Əliyevin çıxışını izlədi və ona qarşı bir daha simpatiya oyandı. Xüsusi ilə də onun çıxışındakı yüksək dəqiqlikli arqumentlər, tezislərin ardıcıllığı, münaqişənin yenidən alovlanmasının əsas səbəblərinin ifadə olunması rusiyalı izləyici üçün hərbi əməliyyatlar və ümumilikdə münaqişə haqqında ətraflı məlumat oldu. Bu xüsusilə də Ermənistanın baş naziri Nikol Paşinyanın əmin olmayan çıxışı fonunda daha çox hiss olunurdu. İlham Əliyev Dağlıq Qarabağ regionunda hərbi əməliyyatların bərpa olunmasına gətirib çıxaran əsas səbəbləri ardıcıl olaraq dilə gətirdi. Bu çox mühüm məsələ idi. O bildirdi ki, İrəvanın qeyri-konstruktiv mövqeyi, danışıqlar prosesini uzatmaq arzusu və uzun müddətdir ki, Paşinyanın törətdiyi təxribatlar nəhayət geniş miqyaslı müharibəyə gətirib çıxarıb".

Bəli, 44 günlük Vətən Müharibəsi bir daha Prezident İlham Əliyev cənablarının dünya miqyasında LİDER siyasətçi olduğunu bir daha göstərdi. Dəmir yumruğa çevrilən 44 günlük Vətən Müharibəsinin Qələbə sevincimizi nümayiş etdirən ZƏFƏR PARADIMIZ bunun sübutudur. Dövlətimizin başçısı İlham Əliyevin Laçının azad edilməsi ilə bağlı xalqa müraciətində qeyd etdiyi kimi, hər kəs gücümüzü, qüdrətimizi, iradəmizi gördü. Bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi. Bu, birlik, güc yumruğudur. Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik. İradəmiz də, təcrübəmiz də var: "İndi bütün ölkələr bu Vətən müharibəsinin təcrübəsini öyrənirlər. Vəsaitimiz də var. Xalq-iqtidar birliyimiz də var. Biz göstərmişik ki, böyük xalqıq, qürurlu xalqıq. Düşməni yerə vurduq. Düşmənin belini qırdıq, məhv etdik. Bu, tarixi Qələbədir. Bu Qələbə Azərbaycan tarixində əbədi qalacaq, şanlı Qələbə kimi!".

Bu Qələbə eyni zamanda, göstərdi ki, Azərbaycan xalqı bu vəziyyətlə heç vaxt barışmaq fikrində deyildi və bütün xalqımız, o torpaqları tərk edənlər, qayıtmaq arzusunda olanlar, o torpaqlarda heç vaxt olmayan, amma o bölgələrdən olan gənc nəslin nümayəndələri, hər kəs bir arzu ilə yaşayıb və bu arzu həyata keçirildi. Artıq müharibə arxada qaldı. Prezident İlham Əliyev Azərbaycan xalqını 2020-ci ilin qalib xalqı etdi. 17 il öncə deyilənlər, bu gün öz müsbət nəticəsini verib. Bu gün Prezident İlham Əliyevin müdrik və uzaqgörən inkişaf strategiyası nəticəsində, dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan, dünyadakı nüfuzu durmadan artan, regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilən ölkəmiz bu gün müəyyən edilmiş hədəflərə doğru inamla irəliləyir, ötən hər il bütün sahələrdə əldə olunan böyük uğurlarla tarixə düşür. Bu nailiyyətlərin əldə edilməsində müstəsna rolu olan dövlət proqramları regionların iqtisadi potensialının əhəmiyyətli dərəcədə artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yaxşılaşmasına, müasir müəssisələrin açılmasına səbəb olmuş, Azərbaycanı bütün bölgələrində dinamik tərəqqi yaşanan bir ölkəyə çevirmişdir. Bax, budur uğurlu siyasət!

Ümumiyyətlə, Aəzərbacan Prezidenti İlham Əliyevin siyasi fəaliyyəti ilə bağlı keçirilən bütün sorğuların nəticələri həmişə yüksək rəqəmlərlə müşahidə olunur. Bütün bunlar nəyi ifadə edir? Hər şeydən əvvəl Prezident İlham Əliyev də məhz 17 illik fəaliyyətinə görə Azərbaycanda yeganə lider olduğunu sübut etmişdir. Həmçinin, bu sorğu bir daha sübut edir ki, Azərbaycanda İlham Əliyev siyasi lider kimi, alternativsiz LİDER kimi xalqın inam ünvanıdır. Çünki məhz bu siyasətin nəticəsində biz Qələbə qazandıq. Haqq, ədalət, Azərbaycanımızın bütövlüyü bərp olundu. Qarabağ Azərbaycandır!

**RƏFİQƏ KAMALQIZI**

# Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə hərbi qulluqçularımız üçün dəstək aksiyası davam etdirilir Hadrutdan reportaj

***İşğaldan azad olunan ərazilərimizdə Vətənin keşiyini çəkən hərbi qulluqçularımıza dəstək aksiyası davam edir. AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu və "Bravo" supermarketlər şəbəkəsi tərəfindən reallaşan aksiyanın növbəti ünvanı Xocavənd rayonunun Hadrut qəsəbəsi olub.***

Dekabrın 29-da səhər Hadruta doğru yola düşdük. Yolboyu şanlı Azərbaycan Ordusunun yağı düşməndən geri aldığı torpaqlarımızı gördükcə bir daha qürur duyduq. Ətrafa səpələnmiş erməni hərbi texnikaları düşmənin necə ağır məğlubiyyətə uğradığını əks etdirirdi. 1992-ci ilin oktyabrında işğal olunan bu ərazilər qəhrəman Azərbaycan əsgərinin şücaəti nəticəsində 28 ildən sonra öz sahiblərinə qayıtdı.

Hadruta çatırıq. Bizi əsgərlərimiz qarşılayır. "Bravo" supermarketlər şəbəkəsinin nümayəndələri gətirdikləri bağlamaları hərbi qulluqçularımıza paylayır və onların istəklərini qeydə alırlar.

Həmsöhbəti olduğumuz qəhrəmanlarımızdan onların keçdiyi şərəfli döyüş yolları barədə məlumat aldıq.











Bir daha şahid olduq ki, Azərbaycan əsgəri şanlı tarix yazaraq işğaldan azad etdiyi Vətən torpaqlarında xidmətini qələbə əhval-ruhiyyəsi ilə yerinə yetirir.

Hadrutun azad olunmasında iştirak edən və 3 fərqli medalla təltif edilən kiçik çavuş Mehdizadə Vətənin keşiyində ayıq-sayıq dayandıqlarını bildirib: "Düşməni Hadrutdan qovub çıxardıq. Bu torpaqlara ilk ayaq basan Azərbaycan hərbçilərindən biri də mənəm. Bu Qələbə müzəffər Ali Baş Komandanımızın dəmir yumruğu, xalq-ordu birliyi nəticəsində bizlərə qismət oldu. Həsrətində olduğumuz bu torpaqlarda xidmət etmək bizim üçün qürur və şərəfdir".

Uzun illərdir torpaqlarımızın işğaldan azad edilməsi arzusu ilə yaşayanlardan biri də Vətən müharibəsinin iştirakçısı olan mayor Mustafayevdir. "Azərbaycanın şanlı Ordusu düşmənə elə bir zərbə endirdi ki, onlar bu məğlubiyyətin təsirindən çətin çıxsınlar. Döyüşlər zamanı hərbçilərimizin ruh yüksəkliyi necə idisə, bu gün də o ruh yüksəkliyi ilə Vətənin keşiyində dayanmışıq. Bütün hərbçilərin əhval-ruhiyyəsi, mənəvi-psixoloji vəziyyəti yüksək səviyyədədir, təminatımız da öz qaydasındadır. Həm dövlət, həm də xalqımız tərəfindən daim mənəvi və maddi qayğını hiss edirik", - deyə o vurğulayıb.





Baş leytenant Abbasov qalib ordunun qalib zabiti olmaqdan şərəf duyduğunu söyləyib. O deyib ki, Azərbaycan Ordusu nəinki Ermənistana, bütün dünyaya necə güclü olduğunu göstərdi: "Düşmənin başını elə əzdik ki, bu müharibəni hələ uzun illər yaddan çıxarmayacaq. Ali Baş Komandanımızın rəhbərliyi ilə xalqımızın tarixinə Şanlı Qələbə yazdıq. Şəhidlərimizin ruhları indi rahatdırlar, onların qisası alındı, torpaqlarımız azad olundu".

Baş əsgər Quliyev də qalib ordu sıralarında olduğu üçün özünü xoşbəxt sanır. Vaxtilə bu yerlərin şəkillərinə həsrətlə baxdığını, indi isə həmin torpaqlarda fəxrlə xidmət etdiyini söyləyir.

Tibb xidməti rəisi, baş leytenant Qiyaslı əsgərlərimizin əhval-ruhiyyəsinin yüksək səviyyədə olduğunu bildirərək, döyüşlərin ilk günlərindən arxa cəbhənin dəstəyini hiss etdiklərini və bunun onlara əlavə güc verdiyini vurğulayıb.

Beləliklə, Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu və "Bravo" supermarketlər şəbəkəsi tərəfindən reallaşan aksiya Hadrutda da təşkil olundu.

Bir daha şahid olduq ki, Azərbaycan əsgəri qəhrəmanlıq və şücaət göstərərək işğaldan azad etdiyi Vətən torpaqlarında xidmətini qələbə əhval-ruhiyyəsi ilə aparır. İşğaldan azad olunan ərazilərdə yerləşən qoşunlarımızın təminatı isə yüksək səviyyədədir.



# Azərbaycan Mühəndislik Akademiyası - 15 il

***Bu günlərdə Azərbaycan Mühəndislik Akademiyasının 15 illiyi tamam olub. AZƏRTAC bu münasibətlə Akademiyanın prezidenti, akademik Arif Paşayevin məqaləsini təqdim edir.***

2020-ci il noyabrın 30-da Azərbaycan Mühəndislik Akademiyasının təsis olunmasının 15 ili tamam oldu. Bu illər ərzində Akademiya formalaşıb, inkişaf edib və cəmiyyətdə özünün layiqli yerini tutub. On beş il tarix üçün böyük vaxt olmasa da, Akademiya bu qısa müddətdə ölkə iqtisadiyyatının inkişafı üçün əhəmiyyət kəsb edən bir sıra mühüm layihələrin yerinə yetirilməsində bilavasitə yaxından iştirak edib.

Azərbaycan elminin tarixində bir çox məşhur adlar, kəşflər və nailiyyətlər var. Baxmayaraq ki, elm adamının yolu bəzən çətin olsa da, bu, öz işinə sonsuz bağlı olan, yorulmadan yeniliyə can atan yaradıcı insanları birləşdirən, cəmiyyətdə şəksiz nüfuz sahibi olan bir peşədir. Elm və texnika hər zaman cəmiyyətin inkişafının mühərriki, milli iqtisadiyyatın, innovasiyaların və elmi-texniki tərəqqinin təməli olaraq qalır. Alimlər və mühəndislərin praktik tədqiqatlarının inkişafı bu gün qeyd-şərtsiz dövlət prioritetidir.

Akademiya öz sıralarında aparıcı elmi-tədqiqat təşkilatlarının və ali məktəblərin elmlər doktorları və namizədlərini, professor və dosentlərini, mühəndislik elmi istiqamətlərinin yaradıcılarını birləşdirir. Akademiyanın üzvləri arasında Dövlət mükafatı laureatları, Əməkdar elm və texnika xadimləri və digər fəxri adlara layiq görülənlər var. Hazırda Azərbaycan Mühəndislik Akademiyasının həqiqi və müxbir üzvlərinin sayı 45 nəfərdir ki, bunlardan da 24 nəfəri akademik, 21 nəfəri müxbir üzv, 1 nəfəri akademiyanın fəxri üzvü və 4 nəfəri isə akademiyanın əcnəbi üzvüdür.

Ölkənin elmi, texniki və iqtisadi potensialı bilik tutumlu sektorun miqyasından və qabaqcıl texnologiyaların istifadəsindən çox asılıdır. Əgər əvvəllər iqtisadiyyatımızın prioriteti neft sektoru idisə, bu gün neft sənayesinin inkişafı ilə paralel olaraq, iqtisadi inkişaf üçün yeni imkanlar da axtarılır. Ölkə postneft dövrünə qədəm qoyub. Azərbaycan Prezidenti İlham Əliyev bir çox çıxışlarında da qeyd etdiyi kimi, bu gün "öz iqtisadi strategiyamızı elə formalaşdırmalıyıq ki, sanki neft və qazımız yoxdur". Buna əsaslanaraq, əsas diqqət elmi nailiyyətlərə və yeni resursların axtarışına yönəldilir və eləcə də maddi, informasiya və texnoloji yeniliklərin bazası genişlənir.

Məlum olduğu kimi, Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə dövlət proqramı həyata keçirilir. Azərbaycanda müasir kosmik sənayenin inkişafında keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı telekommunikasiya peyklərinin orbitə çıxarılmasından - 2008-ci il noyabrın 4-dən qoyulub. Orbitə təxminən 154 televiziya kanalı və 30-dan çox radiostansiyanın yayımlanmasını apara bilən telekommunikasiya peyki buraxıldı. Cənubi Qafqazda aparıcı peyk operatoru "Azerkosmos" tərəfindən idarə olunan "Azerspace-1" və "Azerspace-2" telekommunikasiya peykləri Avropa, Afrika, Yaxın Şərq, Qafqaz və Orta Asiyadakı müştərilərini etibarlı, genişzolaqlı və genişyayımlı həllərlə təmin edir. Yer səthinin məsafədən zondlaşdırması peyki olan "Azersky" yüksək göstərici ilə (1,5 m təsviri) Yerin müşahidəsi və geoinformasiyası üçün keyfiyyətli xidmətlər göstərir.

Qeyd edək ki, ölkəmiz genişmiqyaslı forumların, konfransların və simpoziumların, eləcə də mədəniyyətlərarası dialoqların və digər tədbirlərin ən yüksək səviyyədə təşkili və keçirilməsi sahəsində dünyada müsbət imic qazanıb. Ölkəmizdəki sabitlik beynəlxalq tədbirlərin yüksək səviyyədə keçirilməsinə zəmanət verir. Bu nöqteyi-nəzərdən, Beynəlxalq Astronavtika Konqresinin bütün MDB məkanında yarım əsrlik fasilədən sonra 2022-ci ildə məhz Bakıda keçirilməsi barədə qərar tam məntiqlidir. Özündə 68 ölkədən 398 təşkilatı birləşdirən Beynəlxalq Astronavtika Federasiyası kosmik sahədə fəaliyyət göstərən ən mötəbər təşkilatdır. 1950-ci ildən bəri hər il dünyanın fərqli şəhərlərində keçirilən Beynəlxalq Astronavtika Konqresi kosmik sənayedə təşkilatın əsas tədbiri kimi qeyd edilə bilər. Konqres zamanı iştirakçılar kosmik sahəyə aid olan aktual trendləri və ən son innovasiyaları izləmək fürsəti əldə edirlər. "Qlobal çağırışlar və imkanlar: kosmosa şans verək" mövzusunda konqresin keçirilməsinin Azərbaycana həvalə olunması kosmik sahədən olan müxtəlif şirkət və təşkilatlarla daha sıx əlaqələrin qurulması, ölkəmizə kosmik texnologiyaların transferi prosesinin sürətləndirilməsi, eləcə də insan resursunun inkişafı və Azərbaycanın beynəlxalq arenada etibarlı tərəfdaş nüfuzunun daha da möhkəmlənməsinə əhəmiyyətli töhfə verəcək. Ölkəmiz öz tarixində ilk dəfə olaraq, dünya kosmos ictimaiyyətinin 6000-dən çox nümayəndəsini - aparıcı kosmik agentliklərin, elm mərkəzlərinin və beynəlxalq təşkilatların rəhbərlərini, eləcə də məşhur alimləri, özəl sektordan olan yüksək səviyyəli peşəkarları, gənc tədqiqatçıları və tələbələri bir araya gətirəcək.



***Akademik Arif Paşayev***
***Azərbaycan Mühəndislik Akademiyasının Prezidenti***

Azərbaycan Mühəndislik Akademiyası "Azərbaycan Hava Yolları" (AZAL) QSC ilə birgə aviasiya sahəsində kadrların peşəkarlıq səviyyəsinin inkişafı və təkmilləşdirilməsi, maddi-texniki bazasının genişləndirilməsi istiqamətində fəal işlər aparır. Azərbaycan Milli Aviasiya Akademiyasında yerləşən Pilotların Hazırlıq Mərkəzi Azərbaycan mülki aviasiyası kadrlarının hazırlanması üçün əsas baza hesab olunur. Bu il burada "Embraer E-190" tipli təyyarələr üçün son nəsil aviasiya trenajoru quraşdırılıb. Mərkəzdə, həmçinin "Embraer E-190" və "Boeing 787 Dreamliner" tipli təyyarələr üçün aviasiya trenajorları da yerləşdirilib. Bu trenajorda Azərbaycan aviaşirkətlərinin pilotları ilə yanaşı, xarici aviaşirkətlərin də pilotları təlim keçirlər.

Ölkəmiz üçün ən perspektivli resurslardan biri də tranzit potensialıdır. Məlum olduğu kimi, Azərbaycan son dərəcə əlverişli coğrafi mövqeyə malikdir, Avropa ilə Asiyanın qovşağında yerləşir və qədim zamanlardan dünyanın iki hissəsini birləşdirən qədim ticarət yolları buradan keçib. Bu strateji coğrafi mövqedən səmərəli istifadə, tranzit və nəqliyyat xidmətlərinin inkişafı, Azərbaycanın beynəlxalq nəqliyyat və logistika mərkəzinə çevrilməsi ölkə iqtisadiyyatının daha bir vacib sahəsidir. Ötən il dörd mühüm layihəyə start verildi: Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə hərəkət edəcək beynəlxalq sərnişin qatarı, Sabunçu dəmir yolu stansiyası kompleksi, Abşeron dairəvi dəmir yolunun Sabunçu-Pirşağı xətti və s. İstirahət yerlərində turistlərin rahatlığı üçün dəmir yolu xətləri çəkilir. "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin bir hissəsi olan Rusiya-Azərbaycan sərhədində yeni körpü istifadəyə verilib və Astara-Rəşt dəmir yolunun tikintisi isə davam edir.

Dəmir yollarından əlavə, Xəzər Dəniz Gəmiçiliyinin strukturunun iki istiqamətdə modernləşdirilməsi üzrə işlər də aparılır. Bakı-Aktau-Bakı; Bakı-Türkmənbaşı-Bakı, həmçinin Bakı Beynəlxalq Limanının tikintisini başa çatdırmaq və Ələt qəsəbəsində bütün infrastruktur və istehsal sahələri ilə azad iqtisadi zona yaratmaq istiqamətində işlər davam etdirilir. Tranzit yük daşımalarını artırmaq üçün bütün bu strukturların böyük rolu var.

İnfrastrukturun və logistik inkişafın Azərbaycan iqtisadiyyatı üçün son dərəcə vacibliyini nəzərə alan Azərbaycan Mühəndislik Akademiyasının mütəxəssisləri də bu layihələrdə fəal iştirak edirlər.

Akademiyamızın üzvləri Azərbaycanın enerji sektorunda mühüm layihə olan Trans-Anadolu qaz boru kəməri (TANAP, "Cənub Qaz Dəhlizi" layihəsinin bir hissəsi) qlobal layihəsində də iştirak edirlər. TANAP Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" qaz-kondensat yatağından hasil olunacaq qazın Türkiyəyə və bu ölkədən də Avropaya tədarükünü təmin edir. Trans-Anadolu qaz boru kəməri XXI əsrin enerji tarixinə düşəcək böyük bir layihədir və yeddi ölkəni - Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliyanı birləşdirir. Növbəti mərhələdə Bosniya və Herseqovina, Xorvatiya və Çernoqoriyanın da ona qoşulacağı gözlənilir. Bu layihənin davamı olaraq Trans-Adriatik qaz boru kəməri (TAP) layihəsi istismara veriləcək. TAP marşrutu Albaniya və Adriatik dənizindən keçərək Türkiyə-Yunanıstan sərhədindən İtaliyanın cənubu boyunca uzanır. Cənub Qaz Dəhlizi Xəzər regionu ilə Avropa ölkələrinin bazarları arasında enerji körpüsü olacaq və Avropaya enerji tədarükünün şaxələndirilməsinə kömək edəcək. Azərbaycanın "Şahdəniz" qaz kondensat yatağının ikinci fazasının işlənməsi Cənub Qaz Dəhlizi boyunca tədarük üçün əsas mənbəyə çevriləcək.

"Azərenerji" Səhmdar Cəmiyyəti Azərbaycan Mühəndislik Akademiyası üzvlərinin iştirakı ilə Cənubi Qafqaz bölgəsində ən yüksək faydalı iş əmsalına malik 400 meqavat (MWt) gücündə yeni "Şimal-2" kiçik su elektrik stansiyası inşa edib.

Akademiyanın alimləri və mühəndisləri neft-kimya texnologiyaları sahəsində hidrogen sulfid və karbon qazı olan neft və qaz yataqlarının lay sularında metalın qorunması üçün korroziya inhibitorlarının yeni tərkibinin hazırlanması üzərində işləyirlər. İnhibitorları işləyib hazırlayarkən neft-kimya sintezi üçün xammal mənbəyi kimi təbii və sintetik doymamış üzvi turşular istifadə edilib. Lay sularında karbon dioksidlə doymuş metalı qoruya bilən, çoxfunksiyalı və yüksək effektiv korroziya inhibitorları əldə olunub.

Regionlarda sənaye innovasiya texnologiyalarının tətbiqi sahəsində ölkə əhalisini içməli su ilə təmin etmək üçün inşaat konstruksiyalarının tikintisi davam edir. Sutkada 36 və 60 ton tutumu olan, mürəkkəb və yüksək çirklənmiş tərkibli mənbə suyu olan yaşayış məntəqələri üçün içməli suyun təmizlənməsinə xidmət edən modul tipli cihazın yeni avtomatik idarəetmə bloku hazırlanıb. Bu layihə akademiyanın ölkəmizdə sənaye innovasiya texnologiyalarının kənd yerlərində tətbiq olunmasına yönəlmiş ən əhəmiyyətli layihələrdən biridir.

Aqrar-sənaye sektorunda kənd təsərrüfatının inkişafı sahəsində ölkənin ərzaq təhlükəsizliyini təmin etmək məqsədilə quraqlığa davamlı kənd təsərrüfatı məhsulları istehsalının inkişafı, Azərbaycanın dağətəyi quraq zonalarında və yamaclarında, düzənliklərdə eroziya və sudan səmərəli istifadə üzrə proqramları xüsusi qeyd etmək lazımdır. Akademiyamızın mütəxəssisləri taxıl anbarlarının dezinfeksiya edilməsi və əkin öncəsi emalı üçün ozonatorlar tətbiq etməyə davam edirlər. Kənd təsərrüfatının inkişafı üzrə dövlətlərarası proqram çərçivəsində Azərbaycan Rusiya Federasiyası ilə sıx əməkdaşlıq edir.

Beynəlxalq əməkdaşlıq sahəsində Azərbaycan Mühəndislik Akademiyası bir sıra ölkələrin, xüsusən də Beynəlxalq Mühəndislik Akademiyası və Rusiya, Özbəkistan, Ukrayna, Belarus və Sloveniyanın mühəndislik akademiyaları ilə sıx əməkdaşlığı davam etdirir. İslam Ölkələri Mühəndislik İnstitutları Federasiyasının üzvü olan Akademiyamız bu təşkilatın üzvləri ilə də əməkdaşlığı genişləndirir.

Bizim mühəndislik cəmiyyətimizin fikrincə, əsas resursumuz istedadlı və savadlı insanlar olmalıdır. Kadr potensialı, əsasən Milli Aviasiya Akademiyasının bazasında Texnopark və Tələbə Yaradıcılıq Evində təmin olunur. Həmçinin Azərbaycan Mühəndislik Akademiyasının təşəbbüsü ilə Qərb Universitetində də tələbələr üçün texnopark inşa edilib. Akademiyamız həm Azərbaycan universitetlərində təhsilin keyfiyyətinin idarə olunması, həm də mühəndis ixtisası da daxil olmaqla, yüksək ixtisaslı mütəxəssislərin hazırlanması istiqamətində işləyir.

Hər il Milli Aviasiya Akademiyasında aviakosmik problemlərin həllində gənclərin kreativ potensialının üzə çıxarılmasına və inkişafına həsr edilmiş "Fevral məruzələri" keçirilir. Məruzələrin təşkilatçıları Azərbaycan Respublikasının Təhsil Nazirliyi, "Azərbaycan Hava Yolları" QSC, Milli Aviasiya Akademiyası, Azərbaycan Mühəndislik Akademiyası və "Azərkosmos" ASC-dir. "Fevral məruzələri" çərçivəsində "Aviakosmik problemlərin həllində gənclərin yaradıcı potensialı" mövzusunda hər il Beynəlxalq elmi-praktik gənclər konfransı, həmçinin "Aviakosmik problemlərin həllində gənclərin yaradıcı potensialı" mövzusunda bir sıra elmi-praktik seminarlar və ustad dərsləri keçirilir.

Ötən il beynəlxalq aləmdə böyük nüfuz qazanmış "Azərbaycan Mühəndislik Akademiyasının Xəbərləri" elmi-texniki jurnalının ilk sayının işıq üzü görməsinin 10 ili tamam oldu. On il müddətində jurnal innovasiya texnologiyaları sahəsindəki nailiyyətləri əyani surətdə göstərib və onların inkişaf vektorunu istiqamətləndirib. Jurnal müxtəlif aktual problemləri diqqətə çatdırmaqla fərqlənir və elmi mühəndis düşüncəsinin mənbəyini göstərir. Belə ki, tədqiqatçılar, mütəxəssislər buradan yeni ideyalar əldə edir, öz yeni texniki işləri və təcrübələri, düşüncələri ilə bağlı fikir mübadiləsi aparır. Bu da mühüm çoxşaxəli istiqamətlərin işlənməsinə əhəmiyyətli töhfə verir. Həmçinin aviakosmos, mexanika, maşınqayırma, energetika, neft-kimya, iqtisadiyyat, ekologiya və bir çox yeni inqilabi sənaye sahələrinin - nanomateriallar və nanotexnologiyalar kimi istiqamətlərin inkişafına əhəmiyyətli dərəcədə təkan verir. Jurnal Azərbaycanın və xarici ölkələrin elmi həyatında fəal iştirak edir. Akademiyanın elmi orqanı olan bu jurnal dünya alimlərinin üzləşdiyi problemlərin həlli istiqamətlərinə üstünlük verir. Onun müəlliflərinin və abunəçilərinin coğrafiyası kifayət qədər genişdir. Jurnal alimlər və mühəndislərə öz konsepsiya, ideya, kəşf və ixtiraları haqqında sözlərini demək üçün çox ciddi tribunadır. "Azərbaycan Mühəndislik Akademiyasının Xəbərləri" jurnalı məqalələri üç dildə dərc edir. Jurnal beynəlxalq analitik elmi sitat sistemi "SCOPUS"da qeydə alınıb və kommersiya məlumat bazasının köməyi ilə materialları paylaşır. Jurnalın tam mətn elektron versiyası Rusiya Universal Elmi Elektron Kitabxanasının bazasında mövcuddur və "Rusiyanın elmi sitat indeksləşməsi" (RESİ) layihəsinə daxil edilib və onun təyin etdiyi əmsalla reytinqi müəyyənləşdirilir.

Ötən il ərzində akademiyamızın üzvləri onlarla kitab, monoqrafiya, dərslik, o cümlədən "Nanostrukturirovanie poverxnostey", "Fractal approach to tribology of elastomers", "Tribologiya", "Mühəndislik fəlsəfəsi" traktatı və s. nəşr etdiriblər. Təxminən 65 elmi məqalə dərc olunub, 8 patent alınıb (həmçinin Avrasiya patenti). Mühəndisliyin inkişafında böyük töhfələrə görə Akademiya üzvləri dövlət, hökumət və ictimai təşkilatlar tərəfindən mükafatlandırılıb, 2 orden və 8 medalla təltif olunub. Mühəndislik işlərinin həyata keçirilməsinə görə 1 nəfər Əməkdar mühəndis, 3 nəfər isə İlin mühəndisi fəxri adının diplomları və xatirə medalları ilə mükafatlandırılıb. Akademiyanın 1 üzvü Elm və İnnovasiya Mükafatı laureatı olub, birinci dərəcəli diplomla təltif edilib. Ötən bir il ərzində 6 konfrans, 3 dəyirmi masa və 3 seminar keçirilib. İlin yekunlarına əsasən, Akademiyanın jurnalında dərc olunan üç ən yaxşı elmi məqalənin seçilməsi üzrə müsabiqə keçirilib, qaliblərə diplom və pul mükafatları təqdim edilib. Gənclərin iştirakı ilə "CanSat Azərbaycan - 2019" müsabiqəsi keçirilib.

Akademiyamız, onun elmi və mühəndis qüvvələri Azərbaycan iqtisadiyyatının inkişafı üçün mühüm vəzifələrin həyata keçirilməsində fəal iştirak edirlər. Biz sənaye-innovasiya sektoruna xüsusi diqqət ayırırıq, habelə Beynəlxalq Mühəndislik Akademiyası ilə birlikdə böyük elmi layihələrin həyata keçirilməsi üçün yeni təkliflər hazırlayırıq.

Ötən il iqtisadiyyatın canlanması, böyük infrastruktur layihələrin reallaşdırılması və genişmiqyaslı regional və beynəlxalq sammitlərin keçirilməsi kimi bir çox yeni layihələrin iştirakçısı olan Azərbaycan Mühəndislik Akademiyası üçün məhsuldar bir il olub. Ümidvaram ki, Akademiyanın uğurları daha da artacaq, gələcəkdə müxtəlif ölkələrlə beynəlxalq əməkdaşlıq inkişaf edəcək. Akademiyamızın digər ölkə akademiyaları ilə qarşılıqlı münasibətləri genişlənəcək, mühəndis fikrinin dünya ictimaiyyətinə inteqrasiyası daha da sürətlənəcək. Mühəndislik Akademiyasının çoxsaylı üzvlərini, ölkəmizin elmi-texniki ictimaiyyətini 15 illik yubiley münasibətilə ürəkdən təbrik edir və yaradıcılıq fəaliyyətlərində yeni-yeni uğurlar arzulayıram.

# 2021-ci ilin büdcə zərfinə daxil olan qanunlar Milli Məclisdə üçüncü oxunuşda qəbul olunub

***Dekabrın 29-da Milli Məclisin sədri Sahibə Qafarovanın sədrliyi ilə parlamentin növbəti plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Baş nazir Əli Əsədov və hökumət üzvləri iclasda iştirak ediblər.***

Əvvəlcə 17 məsələdən ibarət gündəlik təsdiqlənib. Milli Məclisin spikeri məlumat verib ki, gündəliyin ilk 9 məsələsi dövlət büdcəsi və büdcə zərfinə daxil olan digər qanun layihələridir. Bu gün parlament üçüncü oxunuşda müzakirəyə çıxarılan həmin qanun layihələrinə münasibətini bildirəcək.

İclasda "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" (üçüncü oxunuş) qanun layihəsini iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili təqdim edib. Bildirib ki, qalib dövlətin büdcəsi, həmçinin manat ifadəsində ən böyük büdcə kimi xarakterizə olunan 2021-ci ilin dövlət büdcəsinin layihəsi Milli Məclisin komitələrində və plenar iclaslarda ətraflı və geniş müzakirə olunub. Həmin iclaslarda maliyyə və iqtisadiyyat nazirləri, Mərkəzi Bankın, Hesablama Palatasının rəhbərləri fəal iştirak ediblər. Büdcə layihəsi birinci və ikinci oxunuşda deputatlar tərəfindən müsbət qiymətləndirilib. Eyni zamanda, deputatlar müzakirələr zamanı müxtəlif təkliflərlə çıxış ediblər.

Komitə sədri qeyd edib ki, dövlət başçısı tərəfindən aparılan islahatlar və atılan qətiyyətli addımlar nəticəsində 2020-ci ildə Azərbaycan iqtisadiyyatında dayanıqlıq müşahidə olunub. 2021-ci ildə iqtisadiyyatımızın artım mərhələsinə qədəm qoyması, makroiqtisadi sabitliyin yeni ildə də qorunub saxlanılması üçün planlaşdırılan tədbirlər üçün ayrılan maliyyə vəsaitləri deputatlar tərəfindən müsbət qiymətləndirilib. Gələn ilin dövlət büdcəsi "Büdcə sistemi haqqında" Qanunun tələblərinə uyğun hazırlanıb, ictimai müzakirələr üçün açıq dərc edilib. KİV-lərdə və telekanallarda çıxış edən millət vəkilləri, ekspertlər 2021-ci il dövlət büdcəsinin layihəsini qarşıda duran çağırışlara və ölkənin təhlükəsizliyinə cavab verən, əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən sənəd kimi qiymətləndiriblər. İşğaldan azad olunan ərazilərin sürətlə iqtisadiyyatımıza inteqrasiyası üçün büdcədə nəzərdə tutulan imkanlar yüksək dəyərləndirilib. Hesablama Palatası da büdcə layihəsinə müsbət rəy verib.

Tahir Mirkişili bir daha deputatların nəzərinə çatdırıb ki, 2021-ci ilin dövlət büdcəsi layihəsində büdcə gəlirləri 1 milyard 303 milyon manat artırılaraq 25 milyard 427 milyon manata, büdcənin xərcləri isə 1 milyard 50 milyon manat artırılaraq 28 milyard 543 milyon manata çatdırılıb. Gələn il üçün büdcə kəsiri 3 milyard 116 milyon manat, inflyasiya 3 faiz, ÜDM-in artımı 3,4 faiz, neftin 1 barelinin qiyməti 40 dollar məbləğində nəzərdə tutulub. Ölkənin müdafiə potensialının gücləndirilməsi və Silahlı Qüvvələrin maddi-texniki təminatının daha da yaxşılaşdırılması məqsədi ilə ayrılan xərclər 500 milyon manat, sosialyönümlü xərclər isə 563 milyon manat artırılıb.

Deputatların təklifləri əsasən ölkə iqtisadiyyatının müxtəlif istiqamətlərinin və qeyri-neft sektorunun inkişafına, regionlarda sahibkarlığın inkişafı hesabına gələcəkdə dövlət büdcəsinin qeyri-neft gəlirlərinin artmasına yönəlib. Eyni zamanda, dövlət büdcəsi xərclərinin daha səmərəli istifadə olunması, şəffaflığın artırılması, kölgə iqtisadiyyatına qarşı mübarizənin daha da gücləndirilməsi zəruriliyi qeyd edilib.



Komitə sədri vurğulayıb ki, üçüncü oxunuşda müzakirəyə çıxarılmış dövlət büdcəsi layihəsi 2021-ci ildə ölkə qarşısında duran çağırışlara layiqli cavab vermək, sosial sahədə və təhlükəsizlik məsələləri istiqamətində dövlət siyasətini həyata keçirmək üçün mühüm maliyyə bazası yaradacaq.

Sonra iclasda maliyyə naziri Samir Şərifov çıxış edərək parlament komitələrində və plenar iclaslarda qaldırılan məsələlərə aydınlıq gətirib, deputatların suallarına cavab verib. Bildirib ki, deputatların irəli sürdükləri təkliflər və tövsiyələr 3 əsas istiqamətə yönəlib: Birincisi, işğaldan azad olunmuş ərazilərə böyük qayıdışın təmin edilməsi ilə əlaqədar görüləcək işlər üçün 2021-ci ilin dövlət büdcəsində ayrılmış vəsaitin artırılması. İkincisi, dövlətimizin müdafiə qabiliyyətinin, milli təhlükəsizliyin və ordumuzun hərbi qüdrətinin daha da möhkəmləndirilməsi üçün əlavə vəsaitlərin ayrılması. Üçüncüsü, büdcədə sosialyönümlü xərclərin artırılması hesabına bəzi sosial ödənişlərin əhatə dairəsinin genişləndirilməsi, bəzi ödənişlərin məbləğinin artırılması üçün əlavə maliyyə mənbələrinin müəyyənləşdirilməsi təklif olunub. Nazir vurğulayıb ki, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən bununla əlaqədar müvafiq sərəncam imzalanıb.

Həmin istiqamətlərdə həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verən Samir Şərifov qeyd edib ki, prioritet sahələr daim ölkə rəhbərliyinin diqqət mərkəzindədir. Belə ki, son 5 ildə milli təhlükəsizliyə və müdafiəyə ayrılan vəsaitin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 3,7 faiz bənd artaraq 16,1 faiz təşkil edib. Beləliklə, bu xərclər 2 milyard 393 milyon manat və ya 2,1 dəfədən çox artıb. Büdcə layihəsindən göründüyü kimi 2021-ci il də bu sıradan istisna deyil. Həmçinin son 5 ildə sosialyönümlü xərclərin büdcə xərcləri tərkibindəki xüsusi çəkisi 3,8 faiz bənd, mütləq ifadədə isə 4,9 milyard manat və yaxud 78,2 faiz artıb ki, bu da hər ötən il üçün 15,6 faiz artım deməkdir. 2021-ci il dövlət büdcəsində sosialyönümlü xərclərin artımı 5,3 faiz təşkil etməklə, bütövlükdə dövlət büdcəsi xərclərinin artımını 1,5 faiz bənd üstələyir.

Nazir bildirib ki, ölkə ərazisində icbari tibbi sığortanın tətbiqinin tam başa çatdırılması, koronavirus pandemiyasına qarşı mübarizə tədbirlərinin davam etdirilməsi, məşğulluğun təmin edilməsi çərçivəsində sosial müdafiəyə ehtiyacı olan əhali qrupları üçün yeni iş yerlərinin yaradılması məqsədilə tədbirlər gələn il də davam etdiriləcək.

Maliyyə naziri vurğulayıb ki, yola saldığımız 2020-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış parlaq Zəfəri qarşıdan gələn 2021-ci ildə də ölkəmizin bütün aparıcı sahələrində davam etdirməklə iqtisadiyyatın dayanıqlı əsaslarla inkişaf etdirilməsinə, işğal olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərinin vüsət almasına, xalqın rifahının və dövlətimizin hərbi qüdrətinin daha da artırılmasına nail olmaq əzmindəyik. Pandemiyanın yaratdığı çətinliklərə baxmayaraq, hər birimiz qarşıya qoyulmuş bu şərəfli və heç də asan olmayan vəzifələrin uğurla yerinə yetirilməsi üçün yorulmadan çalışmalıyıq.

Çıxışının yekununda Samir Şərifov Milli Məclisin rəhbərliyini və bütün deputatları qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edib.

İclasda deputat Sabir Rüstəmxanlının seçildiyi bölgə ilə bağlı təklifləri dinlənilib.

"Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi səsə qoyulub və üçüncü oxunuşda qəbul edilib.

Plenar iclasda "Dövlət Sosial Müdafiə Fondunun 2021-ci il büdcəsi haqqında" (üçüncü oxunuş) qanun layihəsini əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev təqdim edib. Bildirib ki, DSMF-nın gələn il üçün olan büdcəsi etibarlı büdcədir, bu büdcə imkan verəcək ki, 2021-ci ildə aztəminatlı vətəndaşlarımız, pensiyaçılarımız, əlillərimiz, sosial müavinət alan digər kateqoriyadan olan vətəndaşlarımız daha təminatlı şəraitdə yaşasınlar. Qeyd edib ki, müavinətlərin və pensiyaların artım tempi inflyasiyanı üstələyir. Xüsusilə, Zəfər müharibəsi veteranlarının müavinətlərinin artırılması hökumətin diqqət mərkəzindədir.

Sonra parlamentdə çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bildirib ki, Dövlət Sosial Müdafiə Fondunun 2021-ci il büdcəsi hazırlanarkən, ilk növbədə, əhalinin sosial müdafiəsi və sosial təminatı əsas götürülüb. Bu baxımdan ən önəmli kontingent olan şəhid ailələrinə və müharibə əlillərinə dəstək tədbirləri xüsusi əhatə olunub. Bu məsələlər dövlət başçısının xüsusi nəzarətindədir. Bu istiqamətdə silsilə addımlar atılır. Ötən il böyük sosial islahatlar paketi həyata keçirilib.

Nazir qeyd edib ki, həmin kateqoriyadan olan şəxslərin mənzil və avtomobillə təminatı sahəsində ciddi irəliləyişlər var. Bu günədək 9 mindən artıq mənzil, 7 mindən artıq avtomobil həmin kateqoriyadan olan şəxslərə təqdim edilib və bu proses davamlıdır.

Cari ildə qənaət edilmiş vəsait barədə məlumat verən Sahil Babayev bildirib ki, yığımların artması və saxta pensiya işlərinin ləğv edilməsi və optimallaşdırılması nəticəsində qənaət edilmiş 250 milyon manat vəsait də əhalinin sosial müdafiəsinə və sosial təminatına yönləndirilib. Bu il 190 manatlıq səviyyədə olan ödənişin təxminən 200 milyon manatdan yuxarı olan hissəsi bu vəsaitlər hesabına ödənilib.

Nazir deputatlara təmir edilərək istifadəyə verilmiş və gələn il istifadəyə verilməsi nəzərdə tutulan reabilitasiya mərkəzləri barədə də ətraflı məlumat verib. Çıxışının yekununda qarşıdan gələn bayramlar münasibətilə təbriklərini çatdırıb.

İclasda "Dövlət Sosial Müdafiə Fondunun 2021-ci il büdcəsi haqqında" qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda təsdiqlənib.

Sonra Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "İşsizlikdən sığorta fondunun 2021-ci il büdcəsi haqqında" (üçüncü oxunuş) qanun layihəsini təqdim edib. Nəzərə çatdırıb ki, İşsizlikdən sığorta fondunun 2021-ci il büdcəsinin gəlirləri 157 milyon 769 min 146 manat, bu da cari ildəkindən 6 milyon 500 min manat çoxdur. Planlaşdırılan vəsaitin 70 milyon manatı məhz özünüməşğulluq proqramlarının genişlənməsinə sərf olunacaq.

Deputatlar üçüncü oxunuşda səsə qoyulan "İşsizlikdən sığorta fondunun 2021-ci il büdcəsi haqqında" qanun layihəsini dəstəkləyiblər.

Plenar iclasda "Azərbaycan Respublikasında 2021-ci il üçün yaşayış minimumu haqqında" (üçüncü oxunuş) qanun layihəsini İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili şərh edib. Bildirib ki, 2021-ci il üçün yaşayış minimumu ölkə üzrə 190 manatdan 196 manata, əmək qabiliyyətli əhali üçün 201 manatdan 207 manata, pensiyaçılar üçün 157 manatdan 162 manata, uşaqlar üçün isə 170 manatdan 175 manata qədər artırılıb.

Müzakirə zamanı deputat Fazil Mustafa rəy və təkliflərini bildirib. Nazir Sahil Babayev sualı cavablandırdıqdan sonra "Azərbaycan Respublikasında 2021-ci il üçün yaşayış minimumu haqqında" qanun layihəsi səsə qoyulub və üçüncü oxunuşda qəbul edilib.

İclasda "Azərbaycan Respublikasında 2021-ci il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsi barədə (üçüncü oxunuş) məlumat verən əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, 2021-ci il üçün ehtiyac meyarının həddi 170 manat məbləğində nəzərdə tutulub. Bu, cari ildəkindən 10 manat və ya 6,2 faiz çoxdur.

Səsvermə zamanı deputatlar "Azərbaycan Respublikasında 2021-ci il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsini də üçüncü oxunuşda təsdiqləyiblər.

Deputatlara "Büdcə sistemi haqqında" qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) məlumat verən iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, dəyişiklik texniki xarakter daşıyır. Azərbaycanda 2019-cu ildən DSMF-nin təşkilati-hüquqi forması dəyişildiyindən qanunda "müvafiq icra hakimiyyəti" əvəzinə Dövlət Sosial Müdafiə Fondunun adının yazılması təklif olunur.

İclasda "Büdcə sistemi haqqında" qanunda dəyişiklik edilməsi barədə" qanun layihəsi səsə qoyulub və üçüncü oxunuşda qəbul olunub.

***Ardı Səh. 7***

# 2021-ci ilin büdcə zərfinə daxil olan qanunlar Milli Məclisdə üçüncü oxunuşda qəbul olunub

Əvvəli Səh. 6

Sonra Milli Məclis sədrinin təklifinə əsasən Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev mahiyyətcə bir-birinə yaxın olan növbəti üç qanun layihəsi barədə məlumat verib. Bildirib ki, "Sosial sığorta haqqında", "Əmək pensiyaları haqqında" və "Sosial müavinətlər haqqında" qanunlarda edilən dəyişikliklər ölkəmizdə sosial təminat sahəsinin daha da yaxşılaşdırılmasına xidmət edəcək.

Müzakirə zamanı deputat Sabir Rüstəmxanlı rəy və təkliflərini diqqətə çatdırıb. Sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyulub. Milli Məclis üçüncü oxunuşda "Sosial sığorta haqqında" qanunda dəyişiklik edilməsi"nə, "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi"nə və "Sosial müavinətlər haqqında" qanunda dəyişiklik edilməsi"nə razılıq verib.

İclasda "Azərbaycan Respublikası Milli Məclisinin 2021-ci il üçün xərclər smetası haqqında" qanun layihəsi səsə qoyulub və qəbul edilib.

Sonra "Azərbaycan Respublikası Hesablama Palatasının 2021-ci il üçün xərclər smetası haqqında" qanun layihəsi səsə qoyulub və qəbul edilib.

Plenar iclasda "Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında" Əsasnaməyə" dəyişiklik edilməsi barədə" (üçüncü oxunuş) qanun layihəsini iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Mahir Abbaszadə təqdim edib. Məlumat dinlənildikdən sonra qanun layihəsi üçüncü oxunuşda səsə qoyulub və qəbul olunub.

"Avtomobil nəqliyyatı haqqında" qanunda dəyişiklik edilməsi barədə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimlinin şərhi dinlənilib. Müzakirədə deputat İltizam Yusifov yollar və nəqliyyat vasitələri barədə fikirlərini və təkliflərini nəzərə çatdırıb. Səsvermə zamanı "Avtomobil nəqliyyatı haqqında" qanunda dəyişiklik edilməsi barədə" qanun layihəsi dəstəklənib.

Sonra iclasda ikinci oxunuşda müzakirəyə təqdim olunmuş 4 qanun layihəsinə baxılıb. Gündəlikdəki növbəti iki qanun layihəsi - "Müflisləşmə və iflas haqqında" həmçinin Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri (ikinci oxunuş) barədə məlumat verən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli bildirib ki, hər iki qanuna təklif olunan dəyişiklik Dünya Bankının "Doing Business" hesabatında "Müflisləşmənin həlli", "Vergilərin ödənilməsi" və "Əmlakın qeydiyyatı" indikatorları üzrə kreditorların hüquqlarının müdafiəsinin təkmilləşdirilməsi, habelə sərf olunan müddət, prosedur və xərclərin optimallaşdırılması məqsədilə hazırlanıb və ölkəmizin "Doing Business" hesabatında qeyd olunan indikatorlar üzrə mövqeyinin daha da yaxşılaşdırılmasını nəzərdə tutur. Qeyd edib ki, bu reytinqlərdə bizim mövqeyimiz nə qədər yaxşı olsa, biz xarici investorların və beynəlxalq təşkilatların Azərbaycana dəvət edilməsində daha uğurlu fəaliyyət göstərəcəyik.

İclasda ikinci oxunuşun prosedur qaydalarına uyğun olaraq "Müflisləşmə və iflas haqqında" qanunda edilən dəyişiklik səsə qoyulub və sənəd ikinci oxunuşda qəbul edilib.

Sonra Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi ikinci oxunuşun prosedur qaydalarına uyğun olaraq səsə qoyulub və ikinci oxunuşda qəbul edilib.

İclasda "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" (ikinci oxunuş) daha bir qanun layihəsi barədə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişilinin şərhi dinlənilib. Bildirilib ki, qanuna iki maddə əlavə edilir. Onlardan biri 2 il müddətinə ölkəyə idxal olunacaq koronavirus infeksiyasına qarşı vaksinlərin və şprislərin ƏDV-dən azad olunmasını nəzərdə tutur. Digər maddə isə illik emalı 3 milyon tondan az olmayan neft emalı zavodlarının yenidən qurulması zamanı gətirilən mal və materialların əlavə dəyər vergisindən 2 il müddətinə azad olunmasını ehtiva edir.

Qanun layihəsi əsas kimi qəbul edildikdən sonra müzakirə aparılıb, komitə sədri Siyavuş Novruzovun və deputat Aqil Abbasın fikirləri dinlənilib. Sənəd əvvəlcə maddə-maddə, sonra bütövlükdə səsə qoyulub və Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Plenar iclasın yekununda komitə sədri Tahir Mirkişili ikinci oxunuşda təqdim olunmuş "Dövlət borcu haqqında" qanuna təklif olunan dəyişiklikləri şərh edib. Deputat Nigar Arpadarainin fikirləri dinlənilib. Qanun layihəsi ikinci oxunuşun prosedur qaydalarına uyğun səsə qoyulub və "Dövlət borcu haqqında" qanunda dəyişiklik edilməsi barədə" qanun layihəsi ikinci oxunuşda qəbul olunub. Bununla da Milli Məclisin iclası başa çatıb.

# Azərbaycan və Rusiya Baş nazirləri arasında telefon danışığı olub



Dekabrın 29-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin arasında telefon danışığı olub. Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı əsnasında Azərbaycanla Rusiya arasında ticari-iqtisadi münasibətlərin səviyyəsindən məmnunluq ifadə edilib. İqtisadiyyatın müxtəlif sahələrində qarşılıqlı faydalı əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Azərbaycan-Rusiya Hökumətlərarası İqtisadi Komissiyası çərçivəsində aparılan işlərin intensivləşməsinin əhəmiyyəti vurğulanıb, nümayəndə heyətlərinin qarşılıqlı səfərləri yüksək qiymətləndirilib. Telefon danışığı zamanı, həmçinin Azərbaycan, Ermənistan və Rusiya liderlərinin 10 noyabr tarixli birgə Bəyanatından irəli gələn məsələlər müzakirə edilib.

Eyni zamanda, hər iki ölkədə koronavirus (COVID-19) pandemiyasına qarşı mübarizə istiqamətində həyata keçirilən tədbirlər barədə fikir mübadiləsi aparılıb. Hökumət başçıları Yeni il münasibətilə bir-birini təbrik ediblər.

# Ədalət Vəliyev icra başçıları ilə 63 görüş keçirib



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev may-sentyabr ayları ərzində icra hakimiyyəti başçıları ilə 63 görüş keçirib.

Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən siyasi işin təşkilində yerli icra hakimiyyəti orqanlarına kömək etmək və tövsiyyələr vermək üçün Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin rəhbərliyi 60-dan çox yerli icra hakimiyyəti başçısı ilə fərdi görüşlər keçirmişdir. Görüşlərdə dövlət başçısının müvafiq tapşırıqları, eləcə də deputatlarla yerlərdə işin təşkilində diqqət yetirməli məsələlər onların nəzərinə çatdırılmışdır.

# Hulusi Akar: Birgə Mərkəzdə xidmət edəcək heyət Azərbaycana gedib



Qarabağda atəşkəsin Rusiya ilə birgə monitorinqini aparacaq Türkiyə Silahlı Qüvvələrinin heyəti Azərbaycana gedib. AZƏRTAC Anadolu agentliyinə istinadla verir ki, bu barədə məlumatı Türkiyənin milli müdafiə naziri Hulusi Akar açıqlayıb. "Birgə Mərkəzin inşasının tamamlanmasından və fəaliyyətə keçməsindən dərhal sonra bir general və 35 zabitimiz xidmətə başlayacaq", - deyə nazir bildirib.

Hulusi Akar, həmçinin Türkiyə-Rusiya monitorinq mərkəzində xidmət edəcək türk hərbçilərinin artıq Azərbaycana yola düşdüyünü təsdiqləyib.

# Maksim Şevçenko: "Ermənilər müharibəyə hazırlaşır, sülhməramlılar problem yaradır"



Rusiya Dövlət Dumasının keçmiş deputatı, nüfuzlu rus politoloq və ictimai xadim Maksim Şevçenko Qarabağda ermənilər tərəfindən törədilən təxribatları və Rusiya sülhməramlılarının sayının 10 minə çatdırılması haqda təklifləri sərt tənqid edib. Şevçenko Qarabağda hər hansı sülhməramlı misisyanın lazım olmadığını, orada təhlükəsizlik tədbirlərini Azərbaycan hüquq-mühafizə orqanlarının görməli olduğunu və Bakının yerli ermənilərin Azərbaycan vətəndaşı kimi dinc yaşamalarını təmin edəcəyini bildirib. O hesab edir ki, bölgədə Rusiya sülhməramlılarının hərəkətləri problem yaradır. Bundan əlavə Şevçenko bildirib ki, Rusiya Prezidentinin bölgənin Azərbaycanın suveren ərazisi olduğunu bəyan etməsinə baxmayaraq, Rusiyanın bəzi media orqanları, o cümlədən Prezident Administrasiyasının sərəncamında olan RBK bu bölgəni qanunsuz olaraq "Dağlıq Qarabağ Respublikası" kimi təqdim edir, Xankəndi şəhərinin adını Stepanakert kimi qələmə verir.

Politoloq xəbərdarlıq edib ki, ermənilər bəzi qüvvələrin təhriki ilə müharibənin yeni fazasına başlamağa hazırlaşır. O, sülhməramlıların sülh yaratmaq əvəzinə problem yaratdığını vurğulayıb. Şevçenko bəzi digər məsələlərə də toxunub. Videoda tanış ola bilərsiniz.

# "Sərt karantin rejimi gələn il davam edərsə, 190 manat müavinətin məbləğinə baxıla bilər"



Azərbaycanda koronavirusla bağlı verilən 190 manatın gələn il üçün müyyən 196 manat məbləğində yaşayış minimuna çatdırılması məsələsinə hökumətdə baxıla bilər. SİA-nın məlumatına görə, bunu Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev parlamentin dünən keçirilən iclasında deputatların suallarına cavab verərkən deyib. S.Babayev bildirib ki, bu il birdəfəlik ödəmə yaşayış minumuna uyğun verildi. Onun sözlərinə görə, əgər növbəti ildə də sərt karantin rejimi davam edərsə birdəfəlik müavinətin də 196 manat müəyyən edilən yaşayış minumunun həddinə çatdırılması məsələsinə hökumətdə baxıla bilər.

# Azərbaycanda koronavirusa qarşı peyvəndləmə nə vaxt başlayır?

"Türkiyə və Azərbaycan vətəndaşları eyni anda koronavirusa qarşı peyvənd olunacaqlar. Azərbaycanda vaksinasiyanın gələn ilin yanvar ayının əvvəlindən etibarən başlanmasını gözləyirik". SİA-nın məlumatına görə, bunu Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı deyib. O qeyd edib ki, Azərbaycanda peyvənd pulsuz vurulacaq. Qeyd edək ki, Çin istehsalı olan "Sinovac" peyvəndi dekabrın 30-da İstanbula, 31-də isə Ankaraya çatdırılacaq.

# Prezidentə yazırlar: Sizin rəhbərliyinizlə Azərbaycanı daha böyük gələcək, daha firavan həyat gözləyir

***Rəşadətli ordumuzun Vətən müharibəsində qazandığı tarixi Qələbə ilə əlaqədar Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız, eləcə də qardaş Türkiyənin vətəndaşları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq məktubları ünvanlamaqda davam edirlər. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bəzilərini təqdim edir.***



## “Siz bizim əbədi qəhrəmanımızsınız”

İsmayıllı rayonundan Nərmin Fərəməzova yazır:

“Cənab Prezidentimiz, tarix yazan Sərkərdəmiz İlham Əliyev.

Sizə İsmayıllı rayonunun Sulut kəndindən yazıram. Mənim 14 yaşım var. Sizə yazmağımın əsas səbəbi öz sevincimi bildirməkdir. Mən Qarabağ bölgəsindən olmasam da, Qarabağ azad olunanda çox sevinirdim. Çünki Vətənin hər qarışı bizimdir. Vətən müharibəsindəki qalibiyyətimiz Sizin, Azərbaycan Ordusunun, şəhidlərimizin, qazilərimizin və bir yumruq kimi birləşən xalqımızın sayəsində oldu. Allah şəhidlərimizə rəhmət eləsin, yaralı əsgərlərimiz tezliklə sağalsınlar. Bu şanlı qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm. Siz bizim əbədi qəhrəmanımızsınız. Nə yaxşı ki, Sizin kimi başçısı olan müstəqil dövlətin vətəndaşıyam. Vətənə hər an xidmət etməyə hazıram. Biz bir olanda Azərbaycan oluruq! Qarabağ Azərbaycandır!”.

## “Fəxr edirəm ki, Sizin kimi müdrik Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız var”

Saatlı rayon sakini Miryusif Abasov:

“Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan.

Sizin komandanlığınızla şanlı ordumuz tərəfindən işğal altında olan torpaqlarımız 30 ildən sonra mənfur erməni tapdağından azad olundu. Bu parlaq qələbə əsrlərboyu yaradılmış saxta erməni mifini darmadağın etdi. Əlbəttə, bu tarixi qələbəyə Sizin qətiyyətli və müdrik rəhbərliyinizlə, milli birliyimiz, dəmir yumruq kimi birləşməyimiz sayəsində nail olunduq. Şanlı qələbə münasibətilə Sizi, xalqımızı, müzəffər Ordumuzu ürəkdən təbrik edirəm. Fəxr edirəm ki, Sizin kimi müdrik Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız var. Allah Sizi qorusun!

Hörmətli cənab Prezident, Sizin ölkədə qismən səfərbərliklə əlaqədar imzaladığınız Sərəncam mənim də üreyimdən oldu. Həqiqi hərbi xidmət dövründə ağır artilleriyada təcrübə qazanmışdım deyə dərhal cəbhəyə könüllü yazılanlar sırasına qoşuldum. 2020-ci il sentyabrın 29-dan torpaqlarımızın erməni işğalından azad edilməsi uğrunda döyüşlərə qatılmışam. Cəbrayıl, Füzuli, Qubadlı rayonları ərazisində erməni faşistlərinə qarşı şücaətlə vuruşmuşam. Yaralı döyüşçü yoldaşlarımı döyüş meydanından çıxarıb tibbi yardım məntəqəsinə çatdırılmasına kömək göstərmişəm. Hazırda Laçın rayonunda “N” saylı hərbi hissənin tərkibində qulluq edirəm. Əsgərlərimizin sırasında olmağımdan çox məmnunam və böyük qürur duyuram. Şəhidlərimizin ruhu qarşısında baş əyirəm. Yaralı əsgərlərimizə Allahdan şəfa diləyirəm.

Allah Sizi qorusun! Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!”.

## “Bu 44 günlük dövrdə Sizin qətiyyətiniz və dik duruşunuz bizi qürurlandırdı”

Türkiyənin Ankara şəhərindən Enver Türkoğlu:

“Möhtərəm cənab Prezident.

Qazandığınız tarixi Qələbəyə görə Türkiyədən şəxsən Sizə minnətdarlığımı bildirmək istəyirəm. Bu günlərdə Qarabağdakı Qələbəmizin xoşbəxtliyini ürək dolusu yaşayırıq.

Çünki 30 ilə yaxın idi ki, hər gün bu zəfərin xəyalını quraraq yaşayırdıq. Ancaq bir gün həmin anın gələcəyinə, mütləq doğma torpağımıza qayıdacağımıza əmin idik. Allaha şükür ki, Qarabağ bu gün öz sahiblərini qazandı.

Bu 44 günlük dövrdə Sizin qətiyyətiniz və dik duruşunuz bizi qürurlandırdı, bu hisslər uzun illər unudulmayacaq. Fürsətdən istifadə edərək, Sizə və qalib Azərbaycan Ordusuna təşəkkür etmək istəyirəm. Şəhid əsgərlərimizə Allahdan rəhmət, ailələrinə başsağlığı diləyirəm.

Cənab Prezident, səmimi qəlbdən inanıram ki, Sizin rəhbərliyiniz altında, irəliyə baxan güclü siyasətinizlə Azərbaycan hər il daha da inkişaf edəcəkdir.

İki dövlət, bir millət anlayışı hər birimiz üçün dəyərlidir. Türkiyə və Azərbaycan arasındakı dost münasibətləri hər keçən gün daha da inkişaf etdirilməsində Sizin və Prezidentimiz Rəcəb Tayyib Ərdoğanın fəaliyyətini yüksək qiymətləndiririk.

Hörmətli Prezident, Sizi bir daha təbrik edir, uzun ömür, cansağlığı arzulayıram. Ana Vətəndən Ata Vətənimə salamlar çatdırıram”.

## “Bu Qələbə Sizin uzaqgörən, müdrik siyasətinizin nəticəsidir”

Yardımlı rayonundan Məsud Cavadov:

“Cənab Prezident.

44 günlük Vətən müharibəsində qələbə çalmağınız münasibətilə Sizi ürəkdən təbrik edirəm. Mən Sizin bu Qələbənizi alqışlayıram. Bu Qələbə Sizin uzaqgörən, müdrik siyasətinizin nəticəsidir. Allah Sizdən və xalqımızdan razı olsun. Xalq Sizin ətrafınızda dəmir yumruq kimi birləşərək erməni terrorçularını torpaqlarımızdan qovdu.

Cənab Prezident, müharibə vaxtı etdiyiniz bütün çıxışlarınıza heyran qalırdıq, sanki rəhmətlik ulu öndər Heydər Əliyev danışırdı. Sizin çıxışlarınız dillər əzbəri olub. Sizin hər kəlməniz bizim üçün dəyərlidir. Ermənistan ordusunun təxribat törədərək Gəncəyə bir neçə dəfə raket atmasına baxmayaraq, Siz təxribata uymadınız. Öz uzaqgörən siyasətinizlə bu təxribatın qarşısını aldınız.

Allah Ulu Öndərimizə, şəhidlərimizə rəhmət eləsin, yaralılara şəfa versin”.

## “Sizin rəhbərliyinizlə Azərbaycanı daha böyük gələcək, daha firavan həyat gözləyir”

Beyləqan rayonunun sakini İslam Allahverdiyev:

“Möhtərəm Prezident.

Doğma Qarabağın düşməndən azad edilməsi və Vətən müharibəsinin tarixi Qələbə ilə başa çatması hər bir Azərbaycan vətəndaşının qəlbində böyük qürur və iftixar hissi yaşatmışdır. Sizin ulu öndər Heydər Əliyevin siyasi varisi kimi zəngin təcrübəniz və yüksək liderlik keyfiyyətləriniz, xalq arasında və dünyada böyük nüfuzunuz doğma Qarabağ uğrunda savaşda uğurlarımızın əsas şərti olmuşdur. Biz əminik ki, savaş meydanında əldə etdiyimiz tarixi Qələbənin ardınca Sizin rəhbərliyinizlə Azərbaycanı daha böyük gələcək, daha firavan həyat gözləyir”.

## “Yorulmaz siyasi fəaliyyətinizə, hərbi sahədəki şücaətlərə və qəhrəmanlıqlara görə Sizin qarşınızda baş əyirik”

Bakı şəhər sakini Sərdar İsmayılov:

“Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan.

Mən Qarabağ müharibəsi əlili, vətənpərvər qarabağlı kimi torpaqlarımızı erməni faşistlərindən uğurla azad etdiyinizə, böyük zəfərin qazanılmasındakı xidmətlərinizə, tarixi ədaləti bərpa etdiyinizə görə Sizə minnətdarlıq edirəm.

Siz Vətənimizin bir parçası olan Qarabağımızın şəhər və kəndlərini - Şuşanı, Kəlbəcəri, Laçını, Ağdamı, Füzulini, Zəngilanı, Cəbrayılı, Hadrutu, Suqovuşanı və digər ərazilərimizi 30 illik həsrətdən sonra əsl sahiblərinə - bizə qaytardınız. Buna görə Siz bizim Fatehimiz, əvəzolunmaz liderimizsiniz. Yorulmaz siyasi fəaliyyətinizə, hərbi sahədəki şücaətlərə və qəhrəmanlıqlara görə Sizin qarşınızda baş əyirik.

Ağdam rayonu Şıxbabalı kəndinin sakinləri, o cümlədən ailə üzvlərim adından, həmçinin döyüş yoldaşlarımın adından Sizə və komandanlıq etdiyiniz müzəffər Ordumuza səmimi təşəkkürlərimizi bildiririk.

Sizə gələcək fəaliyyətinizdə yeni-yeni uğurlar, tarixi qələbələr və böyük zəfərlər arzulayırıq.

Şəhidlərimizə Allahdan rəhmət diləyir, yaralı qazilərimizin tezliklə sağalmalarını arzulayırıq.

Tanrı Sizi və xalqımızı qorusun!”.

## “Bu Qələbəni Sizin qətiyyətiniz, qardaş və bacılarımızın şücaəti sayəsində qazandıq”

Bakı şəhərindən Cəmilə İmamverdiyeva:

“Hörmətli cənab Prezident.

Mən Texniki-Humanitar Liseyin müəllimi, həmçinin Birinci Qarabağ müharibəsi veteranının qızıyam.

Məktubumla xalqımıza bəxş etdiyiniz Qələbəyə görə təşəkkür edirəm. Bu qələbə tarixini Sizin qətiyyətiniz, qardaş və bacılarımızın şücaəti sayəsində qazandıq. Məhz Siz xalqımızda bu qədər yüksək döyüş ruhu yarada bildiniz. Əsgərlərimizi ruhlandırdığınıza, onlardan diqqət və qayğını əsirgəmədiyinizə görə çox sağ olun. Siz 44 gün ərzində hər an bizimlə oldunuz, biz isə səbirsizliklə Sizdən xoş xəbərlər gözləyirdik.

Mən şəxsən Sizə müəllimlər adından çox sağ ol demək istəyirəm ki, bizi işğal altında olan tarixlər barədə dərs demək əzabından qurtardınız, yeni qalibiyyət tarixini şərəflə, qürurla uşaqlara öyrətmək imkanı verdiniz. Nəhayət, dərsliklərdə, gündəliklərdə ərazilərimizin işğaldan azad edildiyi günlər qırmızı rənglə qeyd ediləcək.

# Prezidentə yazırlar: Sizin rəhbərliyinizlə Azərbaycanı daha böyük gələcək, daha firavan həyat gözləyir

Bizim liseyin məzunu Aqşin Novruzov da Vətən müharibəsinin şəhidi zirvəsinə ucalıb. O daim bizim qəlbimizdə yaşayacaq və arzu edirik ki, bir vaxtlar liseyimiz onun adını daşısın.

Biz şagirdlərimizi Vətənimizin bir parçası olan Qarabağımıza, Azıx mağarasına, Xudafərin körpüsünə, Pənahabad və Şahbulaq qalalarına, Xudavəng, digər alban kilsələrinə ekskursiyaya aparacağımız günləri səbirsizliklə gözləyirik.

Biz onlayn rejimdə şagirdlərimlə birlikdə Sizin çıxışlarınızı izləyirdik. Şagirdlərim Sizin tarixi, coğrafi biliklərinizə, müxtəlif dillərdə natiqlik qabiliyyətinizə heyran olur və bu da onları daha yaxşı oxumağa həvəsləndirirdi.

Əziz Prezidentimiz, şükürlər olsun ki, xalqımızın Sizin kimi Lideri var. Allahdan Sizə möhkəm cansağlığı və uzun illər arzulayıram.

Düşmən qarşısındakı başucalığımıza görə Sizə bir daha təşəkkür edirəm".

## "Bütün dünyaya necə böyük bir lider olduğunuzu bir daha göstərdiniz"

Şəkidən Hüseyin İbadov:

"Möhtərəm cənab Prezident.

Bütün Azərbaycan xalqı Sizinlə fəxr edir. Sizin kimi bir liderimiz olduğu üçün fəxarət hissi keçiririk. Vətən müharibəsində bütün qərarları lazımi anda verdiniz, qətiyyətli addımlar atdınız. Bununla da bütün dünyaya necə böyük bir lider olduğunuzu bir daha göstərdiniz.

Mən məhkumam. Hər gün televiziyadan bütün çıxışlarınızı böyük qürur hissi ilə izləyirəm. Siz dünyanın ən böyük liderisiniz. Xalqımızın qəhrəmanısınız!

Sizə olan minnətdarlıq hisslərimi ifadə etməyə söz yetməz. Şəhidlərimizin, o cümlədən atamın, həmçinin minlərlə qazilərimizin intiqamını aldığınız üçün Sizə təşəkkür edirəm. Yaxşı ki, varsınız, yaxşı ki, bizim liderimizsiniz!".

## "Çətin günlərdə bizi birləşdirib düşmənin başını əzən dəmir yumruğunuz qayğıkeş əllərə çevrilib yurdumuzu bərpa edəcək"

Bakı sakini Asif Hacısoy:

"Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandanımız.

Sizin uzaqgörən siyasətiniz, iradəniz və müzəffər Ordumuzun şücaəti sayəsində çoxəsrlik tariximizin ən parlaq səhifələrindən birinə şahidlik edirik.

1993-cü ildə ətraf rayonların işğalından sonra sağ qalmaq üçün yeganə yolumuz sakini olduğumuz Zəngilan rayonu, Bartaz qəsəbəsindən Arazın o tayına keçməklə köçkün taleyimizə qədəm qoyduq. On yaşlı bir uşaq üçün Arazın o tayında gözlə görünən evinə qayıda bilməmək hisslərini sözlə ifadə etmək olmur. Orada bir neçə gün qaldıqdan sonra qayıtmağın mümkün olmayacağını başa düşüb İran ərazisindən keçməklə İmişlidə, indiki Şirvan rayonunda və nəhayət, Bakıda məskunlaşdıq.

Torpaqlarımızın işğal altında qaldığı illər ərazi bütövlüyümüzün bərpası həsrəti ilə keçdi. Sizin bu istiqamətdə uğurlu fəaliyyətiniz göz önündə idi və bizdə böyük ümidlər yaradırdı. Beynəlxalq təşkilatlar Azərbaycana qarşı ikili standartlar tətbiq etsə də Sizin uzaqgörən siyasətiniz bütün manеələrin öhdəsindən gəldi.

Bu gün artıq torpaqlarımız azaddır və mənim yarımçıq qalan o xoşbəxt uşaqlığımı, övladlarımla birlikdə sonrakı həyatımı dədə-baba yurdumda davam etdirəcəyəm.

Əminəm ki, bu çətin günlərdə bizi birləşdirib düşmənin başını əzən dəmir yumruğunuz qayğıkeş əllərə çevrilib yurdumuzu bərpa edəcək.

Sizə və rəşadətli Ordumuza minnətdarlığımı bildirir, şəhidlərimizə Allahdan rəhmət, yaralılarımıza isə şəfa diləyirəm. Sizi möhtəşəm Qələbəmiz münasibətilə ürəkdən təbrik edir və müstəqil Azərbaycanımızın inkişafı istiqamətindəki fəaliyyətinizdə uğurlar arzulayıram".

## "Bu Qələbə Sizin şah əsərinizdir"

Cəlilabaddan Qeyrət Ağayevin məktubunda deyilir:

"Hörmətli cənab Prezident.

Bu gün Sizə səmimi ürək sözlərimi yazmaqdan şərəf duyuram. Siz həm bizim Prezidentimiz, həm də xalq qəhrəmanısınız. Çünki Siz hər zaman xalqın marağını hər şeydən üstün tutursunuz.

Ermənilərin havadarları nə qədər güclü olsa da Sizin zəkanız, düzgün qərarlarınız bu gücə qalib gəldi.

Bu Qələbə Sizin şah əsərinizdir. Bu əsərin ərsəyə gəlməsində Vətən üçün ölümün gözünə dik baxan igid əsgərlərimizin də payı çoxdur. Allah şəhidlərimizə rəhmət eləsin, əsgərlərimizə uzun ömür versin.

Sizin uzaqgörən siyasətiniz, iradəniz və müzəffər Ordumuzun şücaəti sayəsində çoxəsrlik tariximizin ən parlaq səhifələrindən birinə şahidlik edirik.

Naxçıvanla quru sərhədimizin bərpa olunması siyasi mübarizənizdə alqışlayiq bir qələbədir. Allah Sizi, bu mübarizədə bizə dəstək olan dost ölkələri, onların liderlərini qorusun!

Xalqımız Sizi sevir, ona görə ümid edirik ki, ömürlük bizim Prezidentimiz olacaqsınız. Sizin sayənizdə əldə olunan Qələbə bizi dünyanın ən xoşbəxt, ən zəngin insanlarına çevirdi. Ulu Tanrı Sizə yar olsun!".

## "Siz və şanlı Ordumuz Azərbaycan tarixinə qızıl hərflərlə unudulmaz yeni bir tarix yazdınız"

Lerikdən Rövşən İmanov:

"Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev.

Sizin və şanlı Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində gözəl Qarabağımızın erməni faşistlərindən 44 gün ərzində azad olunması xəbərləri məni və ailə üzvlərimi çox sevindirdi. Bu Qələbə münasibətilə Sizə və şanlı Azərbaycan Ordusunun əsgər və zabitlərinə öz təşəkkürümüzü bildirirəm.

Əziz Prezidentimiz, Siz və şanlı Ordumuz Azərbaycan tarixinə qızıl hərflərlə unudulmaz yeni bir tarix yazdınız. Sizə, Azərbaycan Ordusunun əsgər və zabitlərinə möhkəm cansağlığı, uzun ömür arzu edirik.

Qarabağ Azərbaycandır!

Var olsun Azərbaycan!

Yaşasın Azərbaycan Respublikası!".

## "Xəyallarımızda yaşatdığımız Qarabağımızı, Şuşamızı bizə qaytardınız"

Bakıdan İsgəndərovlar ailəsinin məktubunda deyilir:

"Hörmətli cənab Prezidentimiz.

Allah Sizin kölgənizi xalqımızın başı üzərindən əskik etməsin. Siz indiyə kimi xəyallarımızda yaşatdığımız Qarabağımızı, Şuşamızı bizə qaytardınız. Baxmayaraq ki, anam şuşalıdır, mən indiyə kimi ana torpağımı ancaq şəkillərdə görürdüm, oraları anamın ağlaya-ağlaya danışdığı xatirələri ilə təsəvvür edirdim. Amma Siz peşəkar, inamlı siyasətiniz nəticəsində, rəhbəri olduğunuz Müzəffər Ordumuzun gücünə Qarabağımızı, Şuşamızı bizə qaytardınız, 27 ildən sonra işğaldan azad etdiniz, bu sevinci, xoşbəxtliyi bizə bəxş etdiniz. Bunlar sözlə ifadə edilməyəcək hisslər, anlardır. Səbirsizliklə Şuşamızda qurbanımızı kəsəcəyimiz günü gözləyirik. Allah Sizdən yerdən göyə qədər razı olsun.

Xalqımızın sevimli Prezidenti, Müzəffər Ali Baş Komandanımız, Sizi çox sevirik. Allah Sizi qorusun! 100 yaşayın, cənab Prezident. Dualarımız, sevgimiz Sizinlədir".

## "Sizin ürəyinizdəki Vətən eşqi, qətiyyətiniz sayəsində Qələbəyə nail olduq"

Bakı sakini Mehdi Mehdiyev:

"Möhtərəm cənab Prezident.

Bir lider və rəhbər kimi nailiyyətlərinizi sadalamaqla bitməz. Amma mənim və minlərlə soydaşlarımız üçün bu nailiyyətlərin içində ən əsası torpaqlarımızı azad etməyinizdir.

Torpaqlar Sizin səyləriniz, uzaqgörən siyasətiniz, güclü strategiyanız sayəsində azad olundu. Ən əsası isə ürəyinizdəki Vətən eşqi, qətiyyətiniz sayəsində Qələbəyə nail olduq.

Mən sahibkaram. Fəaliyyətimlə bağlı bir çox böyük beynəlxalq şirkətlərin rəhbərləri ilə ünsiyyətdə oluram, müxtəlif bölgələrdə gedən siyasi prosesləri müşahidə edirəm. Bu qənaətə gəlmişəm ki, əsl liderin biliyi, intellektual savadı və qətiyyəti ilə yanaşı ürəyində Vətən eşqindən doğan alov olmalıdır. Bu alovu mən Sizdə gördüm. Sevinirəm ki, belə bir ürəyə malik şəxs mənim ölkəmin rəhbəridir. Sizin xalq üçün etdiyiniz böyük bir müvəffəqiyyət, tarixi qələbə, nəhayət bir millətin mənliyinin, hər birimizin şərəf və ləyaqətinin yüksəlməsidir.

Mənim atam 4 il əvvəl 75 yaşı tamam olanda kədərlə dedi ki, görəsən mən Laçının azadlığına qədər yaşayacağammı? Bu gün atam 79 yaşındadır və ürəyi Sizin sayənizdə sakit və şaddır. Hər bir soydaşımız Sizə qarşı heç nə ilə ölçülə bilməyən minnətdarlıq hissi keçirir, biz bu gün yaşananları heç vaxt unutmayacağıq.

Bilin ki, Sizin yolunuzda hər şeyini, hətta canının fəda etməyə hazır olan yüz minlərlə insan var".

## "Sizin sayənizdə Ağdam rayonundan olan ailəmin üzərindən məcburi köçkün adı götürüldü"

Culfadan Ömər Nəzərov:

"Möhtərəm Prezidentimiz İlham Əliyev.

Sizin sayənizdə Ağdam rayonundan olan ailəmin üzərindən məcburi köçkün adı götürüldü. Mənim atam da hazırda milli orduda xidmətini layiqincə yerinə yetirir. Həm hərbçi ailəsində böyüdüyümdən, həm də Sizi izlədikdən sonra ordumuza layiqli hərbçi olacağıma söz vermişəm. İndi mənim 15 yaşım var, ordu sıralarında hərbi xidmət etmək üçün günləri sayıram. Allahın izni ilə o gün mənə qismət olar.

Cənab Prezident, Sizi başqa ölkələrin prezidentləri ilə müqayisə etdikdə Sizinlə daha da qürur duyuram. Siz bu milləti sevindirdiniz, Qarabağımızı bizə qaytardınız. Allah Sizə uzun ömür, cansağlığı versin. Daim ölkəmizin başında durasınız və ölkəmizi daha irəli aparasınız. Mən bunu tam səmimi qəlbimlə yazıram, ürək sözlərimi Sizə çatdırmağa çalışıram. Sizinlə fəxr edirəm və qürur duyuram. Allah Sizdən razı olsun! Sonda bir daha Ağdamlı olaraq, bütün ağdamlılar adından Sizə təşəkkür edirəm. Allah köməyiniz olsun, daha da güclü olasınız. Sağ olun! Var olun!".

## "Sizin hakimiyyətinizin ilk günündən həyata keçirdiyiniz məqsədyönlü fəaliyyətiniz Azərbaycanımızın bu günü üçün polad təməllər qoymuşdur"

Fransanın Paris şəhərində yaşayan Günel Səfərova yazır:

"Möhtərəm cənab Prezident!

Siz 30 ilə yaxın müddət ərzində işğal altında qalmış Qarabağımızı bizə - Azərbaycan xalqına qaytardınız. Azərbaycan tarixində yeni səhifə yazdınız. Sizin hakimiyyətinizin ilk günündən həyata keçirdiyiniz məqsədyönlü fəaliyyətiniz Azərbaycanımızın bu günü üçün polad təməllər qoymuşdur. Bundan heç bir zaman şübhə etməmişdik.

Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun məharətli təmsilçisi olaraq dövlətimizin parlaq gələcəyinin Sizin kimi Prezidentin rəhbərliyi ilə olacağından tam əminik.

Cənab Prezident, Sizi Fransada yaşayan azərbaycanlılar adından səmimi qəlbdən təbrik edirik. Bu müşkül zamanda Sizə, ilk növbədə, möhkəm cansağlığı, uzun ömür, işlərinizdə uğurlar arzu edirik. Qarabağı azad etməklə dünyaya dövlətimizin gücünü göstərdiniz və biz azərbaycanlılara qürurumuzu və məğrurluğumuzu qaytardınız. Buna görə Sizə minnətdarlığımızı bildiririk!".

# Mədəni irsimiz dünya miqyasında qorunur və təbliğ edilir




***BMT-nin ixtisaslaşmış təşkilatı olan YUNESKO dünyanın təhsil, elm və mədəniyyət məsələləri sahəsindəki əməkdaşlığın ən böyük hökumətlərarası forumudur. 1946-cı ildə 20 üzv-dövlətdən ibarət təşkilat öz rəsmi fəaliyyətinə başlayıb. BMT-nin bu ixtisaslaşmış orqanının vəzifəsi müharibə nəticəsində dağıdılmış ölkələrdə sinif otaqları tikmək, yaxud elmi nailiyyətləri nəşr etməklə məhdudlaşmamışdır. YUNESKO-nun fəaliyyəti daha ali məqsədə - təhsil, elm, mədəniyyət və kommunikasiya vasitəsilə insanların şüurunda sülhü müdafiə etmək ideyasını möhkəmləndirməyə yönəlmişdir. YUNESKO irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq, bütün xalqlar üçün BMT-nin Nizamnaməsində elan edilmiş ədalətə, qanunçuluğa və insan hüquqlarına, habelə əsas azadlıqlara hamılıqla hörmətin təmin edilməsi naminə xalqların təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığını genişləndirməklə sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə yardım göstərməyi qarşısına vəzifə qoymuşdur. Həmin dövrdən başlayaraq bu günə qədər bura üzv olan dövlətlərin sayı artmışdır.***

Azərbaycan-YUNESKO əlaqələrini bu sırada xüsusi olaraq qeyd etməliyik. Bu əlaqələndirici körpünün əsası müstəqillik dövründən başlamışdır. YUNESKO-Azərbaycan əlaqələrinin inkişafında ən mühüm addımı Ümummilli Lider Heydər Əliyev 1993-cü ilin dekabr ayında Fransa Respublikasında rəsmi səfərdə olarkən YUNESKO-nun Baş Direktoru Federiko Mayorla görüşü zamanı atılmışdır. Tərəflər öz aralarında əməkdaşlığın genişlənməsi məsələsini və onun sonrakı inkişafının perspektiv planlarını müzakirə etmişdilər. YUNESKO-nun nizamnaməsinə görə, üzv-dövlət təhsil, elm və mədəniyyətlə məşğul olan qurumların fəaliyyətini YUNESKO-nun işi ilə əlaqələndirmək üçün ilk növbədə Milli Komissiya yaratmaq yolu ilə müvafiq tədbirlər həyata keçirməlidir. Ona görə də YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yaradılması üçün lazımi addımlar atılmış və Ümumilli Lider Heydər Əliyev bununla bağlı 21 fevral 1994-cü il tarixində sərəncam imzalamışdır. Sərəncama əsasən, Milli Komissiya Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin nəzdində yaradılmış, xarici işlər naziri onun sədri təyin edilmiş və eyni zamanda sədrə Milli Komissiyanın tərkibini müəyyən etmək səlahiyyəti verilmişdir. Bundan sonra Respublikanın müvafiq nazirlik və idarələrinin rəhbərlərindən, ziyalılardan və ictimaiyyətin digər nümayəndələrindən ibarət Milli Komissiyanın 25 nəfərlik tərkibi və daimi katibliyi formalaşdırılmışdır.

15 sentyabr 2005-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev YUNESKO ilə Azərbaycan Respublikası arasında qarşılıqlı əlaqələrin inkişaf səviyyəsini nəzərə alaraq, YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalamışdır. Sərəncama əsasən YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yeni tərkibi müəyyənləşdirilmişdir. Milli Komissiya Azərbaycanın YUNESKO-dakı siyasətinin əsas istiqamətlərini müəyyən edir.

Bu gün Azərbaycanla YUNESKO arasında əlaqələr davamlı şəkildə həyata keçirilir. Azərbaycan maddi və mənəvi irsinin YUNESKO-nun nadir əsərləri sırasına daxil edilməsi beynəlxalq əməkdaşlığın əsas göstəricilərdir. Belə ki,UNESCO ilə əməkdaşlığın genişləndirilməsində, mədəni irsimizin qorunması və dünya miqyasında təbliğində əvəzsiz xidmətləri olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İCESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın dəstəyi ilə hazırda "Dədə Qorqud irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi", kamança hazırlanması və ifaçılıq sənəti, dolma hazırlama və paylaşma ənənəsi, Azərbaycan muğam ifaçılığı, lavaş bişirmə və paylaşma ənənəsi, Lahıc misgərlik sənəti, aşıq sənəti, Novruz bayramı, xalça sənəti, tar ifaçılığı, kəlağayı sənəti UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısında, həmçinin Çovqan - ənənəvi Qarabağ atüstü oyunu və "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" isə UNESCO-nun təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısında yer alır.

Azərbaycan dünyanın nüfuzlu ölkələri sırasında bütün sahələrində təbliğ olunaraq, özünün tarixi mədniyyəti, adət-ənələrini təqdim edərək nüfuzlu qurum tərəfindən öz qiymətini alır. Ölkəmizin sərvətlərinin tanınmasında və dünya miqyasında, əks-səda ilə qarşılanması süz ki, bu beynəlxalq qurum tərəfindən ona verilən yüksək qiymətdir. Qeyd edək ki, İçərişəhər, Qız Qalası və Şirvanşahlar Saray Kompleksi Ümumdünya İrs Siyahısına daxil edilmişdir. UNESCO-nun Ümumdünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü Sessiyasında Şəki şəhərinin tarixi hissəsi və Şəki Xan Sarayı Dünya İrs Siyahısına daxil edilib. Şəki İçərişəhər və Qobustandan sonra Azərbaycanın Ümumdünya İrs Siyahısına salınan üçüncü mədəni irs məkanı oldu. Bu və ya digər abidələrin UNESCO-nun Dünya İrs Siyahısına daxil edilməsi ölkə başçısının və Birinci-vitse prezident Mehriban Əliyevanin tariximizə, mədəniyyətimizə göstərdiyi xüsusi qayğısının nəticəsidi. Görülən işlər Azərbaycanın ölkəmizin daxilində, istərsə də onun hüdudlarından kənarda - dünya irsi obyektlərinin qorunması ilə bağlı həyata keçirdiyi dövlət siyasətinin davamı olduğunu göstərir. Bildiyimiz kimi, 14-19 dekabr tarixində UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitənin 15-ci iclası keçirildi.

Azərbaycan Respublikasının təqdim etdiyi "Nar bayramı, ənənəvi nar festivalı və mədəniyyəti" adlı nominasiya sənədi UNESCO-nun Bəşəriyyətin qeyri-maddi mədəni irsi üzrə Reprezentativ Siyahısına daxil edilməsi haqqında qərar qəbul olunmuşdur.

Azərbaycan tarixi uzaq əsrlərə gedib çıxan narın yetişdirilməsi mədəniyyəti ilə qırılmaz sur?td? bağlıdır. Narlar tarixən Azərbaycanın dem?k olar ki, bütün regionlarında yetişdirilir. Lakin quru subtropik zonada yerləşən Şirvan ən yaxşı nar sortlarının yetişdirilm?si mərkəzi kimi qəbul edilmişdir. Şirə istehsalı üçün əsas etibarı ilə Göyçay rayonunda yetişən narlardan istifadə olunur.

Məhz Göyçay narı dünyada tanınaraq, "əsl Azərbaycan narları" üçün sinonimə çevrilmişlər. Qöyçay narlarının əla dadı və dəyişməz keyfiyyətinin sirri dünyanın heç bir yerində rast gəlinməyən unikal mikroiqlimin müxtəlifliyi və rayonun torpaq tərkibidi.

Ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edən belə bir qərarın qəbul olunması Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın dəstəyi, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Xarici İşlər Nazirliyi, UNESCO yanında Azərbaycan Respublikasının Daimi Nümayəndəliyi və UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının birgə fəaliyyəti nəticəsində mümkün olmuşdur.

*Zümrüd BAYRAMOVA*




## FOTOFAKT: Rusiyanın rəsmi xəbər agentlikləri "dqr"in təbliğatı ilə məşğuldur

Bu fakt tərəfsizliyi şübhə altında qoymaqla yanaşı, imzaya hörmətsizlik və öhdəliyə götürülmüş vəzifənin icra edilə biilinməməsi kimi qiymətləndirilə bilər! Qondarma və quldur "dqr" rejiminin Rusiya sülhməramlılarının nəzarətində qalan hissəsində "təhlükəsizlik şurasının sədri" vəzifəsinə təyin olunmuş Vitali Balasanyanın Xankəndi və s. ərazilərdə alkoqollu içkini, narkotikləri yasaq elan etməsi və bu yasağın Rusiya sülhməramlılarına da aid edilməsi "qərarının" ardınca onun təbliğatı Rusiyanın hakimiyyətə yaxın telekanallarında da təbliğ olunmağa başlayıb. SİA xəbər verir ki, tanınmayan, mövcudluğu olmayan bir ərazini "respublika" kimi təqdim edən, üstəlik quldur rejiminin nəzarətində qalan silahlı dəstələri "dqr"in "müdafiə ordusu" kimi qələmə verən ruslar Balasanyanın "qərarına" istinad edərək, az qala oraları bir "ölkə" olaraq təqdim edir.

Qeyd edək ki, onsuz da son günlər Rusiya sülhməramlılarının qarşılarına qoyulmuş vəzifələrinin öhdəsindən gələ bilməmələri, yaxud tərəfsizlik nümayiş etdirmələri yerinə erməni separatçılarına və silahlılarına dolayı dəstəklər göstərmələri Azərbaycan cəmiyyətində ciddi narazılıq və hiddət doğurub və belə bir anda Rusiyanın hakimiyyətə yaxın TV-də, saytlarında, portallarında "dqr"in açıq-aşkar təbliğatı ilk növbədə üçtərəfli atəşkəs bəyanatının pozulması anlamını verir, eyni zamanda belə bir təəssürat yaradır ki, əslində sülməramlıların davranışları ilə yanaşı, rus televiziyaları da ölkə rəhbərliyinin imzasına hörmətsizlik göstərməkdədirlər. Habelə, Rusiyanın dövlət rəhbərliyi də baş verənlərrə biganə yanaşmaqdadırlar. Məsələn, bir neçə gün əvvəl Hadrut və Xocavənddə erməni silahlılarının hərbçilərimizə qarşı törətdikləri diversiya hadisəsindən sonra Rusiya müdafiə nazirliyi təbeçiliklərində olan sülhməramlıların bu məsələyə dərhal müdaxilə etməsi yerinə, həmin hadisədən 10 saat (!) rəsmi açıqlama ilə çıxış edib. Bu isə həm də belə deməyə əsas yaradır ki, Azərbaycanın ərazi bütövlüyünü qeydşərtsiz tanıdığını bəyan edən Rusiyanın dövlət başçısının sözlərinə rəğmən, bu ölkənin müdafiə nazirliyinin rəsmi saytında qondarma və quldur rejimin bayrağı hələ də qalmaqda davam etməsi, üstəlik RİA Novostinin təbliğat aparması bir daha bizləri düşünməyə vadar edir.

*Rövşən RƏSULOV*

## Qondarma rejim liderlərinin səhifələri bağlanır



Tanınmamış, qondarma Dağlıq Qarabağ Respublikasının Təhlükəsizlik Şurası, liderlərinin Facebook səhifələrinə sahib olmasını qadağan etməyi planlaşdırır. SİA xəbər verir ki, bu barədə Rusiyaya məxsus RİA Novosti agentliyi məlumat yayıb.

Məlumatda bildirilir ki, bu barədə qondarma rejimin Təhlükəsizlik Şurası rəhbəri İctimai Televiziyaya verdiyi müsahibədə bəyan edib. "Təhlükəsizlik Şurası iclasının gündəliyindəki ilk məsələlərdən biri də "Facebook" platforması olacaq. Əminəm ki, başda qondarma respublikanın prezidenti olmaqla, liderlərin də Facebook səhifəsinin olmasını qadağan edən bir qərar veriləcək", deyə Balasanyan öz müsahibəsində bildirib. Onun sözlərinə görə, hər bir strukturun məlumat vermək üçün öz mətbuat xidməti yetərlidir. RİA Novosti yazır ki, bundan əlavə, vəzifəli şəxslərə iş vaxtı sosial şəbəkələrdən istifadənin işdən çıxarılma ilə nəticələnəcəyi barədə xəbərdarlıq da edilib.

*İnam Hacıyev*

# Sarkisyanın etirafları:

## Ermənistanın yalnız bir xilas yolu var

***Ermənistan prezidenti Armen Sarkisyan 44 günlük müharibədə məğlubiyyətə uğrayan ölkəsinin üzləşdiyi ağır vəziyyətlə bağlı bir sıra etiraflar edib. O deyib ki, müharibədəki biabırçı məğlubiyyətin yükünü təkcə Ermənistanın bugünkü cəmiyyəti deyil, gələcək nəsillər də daşıyacaq.***

Sarkisyan, həmçinin bildirib ki, müharibədə minlərlə gəncin ölümü həm cəmiyyət, həm onların ailələri üçün ağır faciədir. Demoqrafik məsələlərə toxunan erməni prezident bu istiqamətdə də məğlub olduqlarını gizlətməyib.

"Azərbaycanlılar həm də informasiya və media müstəvisində müharibəyə hazırlaşdılar. Ermənistan bu müharibəni itirdi, ona görə ki, bununla məşğul olmadı. Azərbaycan Ermənistana qarşı informasiya hücumları edir, Ermənistanda isə qüvvələr bir-birilərinə ittiham yağdırırlar"- deyə Armen Sarkisyan qeyd edib.

O, Ermənistan dövlətçiliyinin uzun illər dağıdılması prosesinin getdiyini vurğulayıb və nəticənin göz qabağında olduğunu bildirib. A.Sarkisyanın etiraflarını Azvision.az -a şərh edən "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu deyib ki, İkinci Qarabağ müharibəsi və ermənilərin acı məğlubiyyəti Ermənistanda sosial-iqtisadi böhrana, gərgin mənəvi-psixoloji duruma səbəb olub.








Politoloq hesab edir ki, Ermənistan prezidentinin bu acı etirafları məhz rus dilində səsləndirilməsi təsadüfi deyil.

"Armenin fikirlərini rus dilində çatdırması çox önəmli məqam idi. O, təkcə erməni xalqına deyil, sanki hər kəsə elan edirdi ki, bəli, çox böyük səhvlər etmişik. Onun rus dilində danışması bəlkə də bizə bir mesaj idi. Çünki erməni prezident öz dilində etiraflar etsəydi, yalnız xalqı anlayacaqdı, fikirləri qısa zamanda geniş müzakirələrə yol açmayacaqdı. O, hətta Nikol Paşinyanın demədiklərini belə dilə gətirdi ki, Azərbaycana necə məğlub oldular, cəmiyyəti bu acı faciələrə necə sürüklədilər. Amma maraqlısı odur ki, Ermənistan rəhbərləri bu mövzuda hər şeydən danışsa da, əsas məsələyə gələndə, onun üzərindən keçirlər. Hheç Sarkisyan da demədi ki, niyə yalnız onun xalqı üçün bu faciələr baş verir? Axı bu hadisələrin bir səbəbi var ki, o da hər zaman Azərbaycan və Türkiyəyə qarşı erməni cəmiyyəti və erməni siyasi elitası tərəfindən ərazi iddialarının ortaya atılmasıdır. Bu siyasi xəttin zərərli olmasını ilk prezident olan Levon Ter-Petrosyan da anlamışdı. O zamanında etiraf etmişdi ki, hər iki ölkə ilə əməkdaşlığın yollarını aramaq lazımdır. Hətta bu, o Levon idi ki, onun zamanında torpaqlarımız işğal olunmuşdu. Amma bugünkü prezident əsas məsələnin üzərindən keçir, bu amili etiraf etmir".




Politoloq hesab edir, ermənilərin bugünkü bəlalarının əsas səbəbi hələ də iki qonşu ölkəyə qarşı düşmənçiliyi davam etdirmələridir.

"İndi müharibəni acı şəkildə məğlub olmusunuz və etiraflarını da dilə gətirirsən. Ancaq yenə də kinli formada deyirsən ki, biz güclənib əks-həmlələr etməliyik. Demək istəyirsən ki, erməni xalqı yenidən müharibəyə hazırlaşmalı, Azərbaycan və Türkiyədən güclü olmalıdır? Onsuz da bundan sonra heç vaxt real görünməyəcək ki, Ermənistan Türkiyə və Azərbaycandan güclü olsun. Bu həqiqətən də xülyadır. Sən əksinə olaraq cəmiyyətinə mesajlar göndərməli idin ki, biz indən belə hər iki ölkə ilə qarşıdurmaya getməməliyik, barışığın yollarını axtarmalıyıq. Regional layihələrdə iştirak etməli, varlı ölkəyə çevrilməliyik. Çünki kasıblıqdan, iqtisadi tənəzzüldən çox danışır. Maraqlıdır, bu cür siyasətlə belə bir regionda ağır iqtisadi durumdan, necə çıxacaqsınız? İnsanları kasıblıqdan kütləvi şəkildə necə xilas edəcəksiniz? Heç erməni lobbisinin milyonları da bunun üçün sizə bəs etməyəcək. Arxayın olduğunuz Rusiya isə ölkənizə heç qəpik də verən deyil. Bu quyudan çıxmağın real yolu qonşu dövlətlərlə əməkdaşlığa getmək, regional layihələrdə aktiv iştirak etmək, sərhədlərin qapısını normal bir şəkildə hər kəsə açmaqdır. Yalnız ərazi iddialarından vaz keçsələr, real əməkdaşlıqlar mümkün olacaq. Ancaq nə Paşinyan, nə də Sarkisyan bu barədə bir dəfə də olsun etirafı dilə gətirmirlər. Nələrdə uduzmağınız, cəmiyyətinizin niyə parçalanması kimi etiraflar məğlubiyyətin əsl səbəbləri deyil. Qısası işğalçı siyasət onları uçuruma apardı və etiraf edib, bundan əl çəkmirlərsə, bundan sonra da uçurumda qalacaqlar".

Elxan Şahinoğlunun sözlərinə görə, Sarkisyanın təzadlı fikirləri də diqqətdən qaçmır: "O, Azərbaycan ordusunun bu illərdə güclənməsini, hərbi məsələlərə milyardlarla dollar xərcləməsini etiraf etdi, dron üstünlüyümüzü qabartdı. Sonra da qeyd edir ki, məğlubiyyətin acı nəticələrini nəvələrimiz də hiss edəcək. Bu etiraflar doğrudur, amma nəticə çıxarmırsınız axı. Yaxşı, bu faciəvi durumunuz uzun müddət çəkəcək və nəvələriniz də bunun ağır nəticələrini görəcəksə, hansı ağılla yenə bizimlə düşmənçiliyi saxlamağa, qisasa çalışırsan? Artıq normal münasibətlər qurmağın yollarını axtarmalısınız. Bizim üçün həqiqətən də maraqlı deyil ki, ermənilər bundan sonra ölkəmizlə əlaqələri bərpa edəcəklər, yay yox. Biz özümüz indiyə kimi necə inkişafda olmuşuqsa, bundan sonra da uğurlu istiqamətdə irəliləyəcəyik. Kifayət qədər tərəfdaşlarımız, müttəfiqlərimiz var, qonşularla normal münasibətlər qurmuşuq. Bu əlaqələrin bərpası ilk növbədə Ermənistanın özünə lazımdır və vacibdir. Azərbaycan bundan sonra yüz il də Ermənistansız keçinər. Nəqliyyat yollarımız Gürcüstandan rahat şəkildə keçir, bizə lazım olan Türkiyə ilə əlaqələrimiz problemsiz şəkildə qurulur. Özləri də gözəl anlayırlar bu zərurəti, sadəcə görünür dilə gətirməyə qorxurlar.

Təsadüfi deyil ki, son zamanlar bu məsələlər ətrafında bəzi erməni rəhbərlərdən etiraflar da gəlmişdi. Bir nazir demişdi ki, Türkiyə və Azərbaycan bazarlarına çıxış imkanı əldə etməliyik. Komitə sədrləri Azərbaycanla diplomatik əlaqələrin bərpasının vacibliyini dilə gətirmişdi. Hətta düşünürəm ki, növbəti seçkilərdə Paşinyan yenə qələbə çalsa, o Türkiyə və Azərbaycanla barışmağın yollarını arayacaq. Sadəcə olaraq hələ ki, indiki cəmiyyətləri revanş əhval-ruhiyyəsindədir. Bunu haradasa anlamaq olar. Çünki yenicə məğlub olublar və qisas haqqında düşünürlər. Halbuki bu mümkün olan şey deyil. Bizdən yaxın gələcəkdə qisas almaları real görünmür. Ola bilsin, Ermənistan prezidenti sonradan dediyimiz əsas etirafını edəcək. O, iki əsas qonşu dövlətlə düşmənçiliyi davam etdirə bilmərik deyəcək. Keçmiş prezidentin müşaviri olmuş Jirayr Libaridyan bu mövzuda çox doğru bir fikir söyləmişdi - "Əgər Ermənistan Türkiyə və Azərbaycanla münasibətləri normallaşdırmasa, xəritədə özünə başqa bir yer axtarar". Bu çox acı həqiqət idi ki, o, öz xalqına bunu anlatmağa çalışmışdı".

# VİDEOFAKT: Vitali Balasanyanın Allahverdi Bağırovla şok videosu üzə çıxdı!

### Erməni terrorçusu haqqında ilginc faktlar



Quldur "dqr" rejiminin başçısı Araik Arutunyan tərəfindən "təhlükəsizlik şurasına" təyin olunmuş yeni "rəhbəri", birinci Qarabağ müharibəsi zamanı azərbaycanlılara qarşı xüsusi qəddarlığı ilə seçilən Vitali Balasanyanın 90-cı illərə aid videosu mövcuddur. SİA-nın əldə etdiyi videomateriala görə, Vitali Balasanyan BMT missiyasının nəzarəti altında Azərbaycan tərəfi ilə əsirlərin və meyitlərin dəyişdirilməsi ilə bağlı görüşdə Milli Qəhrəmanımız Allahverdi Bağırovla birlikdə yer alıb.

### Balasanyan 2016-cı ildə baş verən Aprel döyüşlərində də yaxından iştirak edib

Xatırladaq ki, Balasanyan Dağlıq Qrabağdakı seperatçı rejimin keçmiş rəhbəri Bako Saakyan tərəfindən qondarma rejimin "Təhlükəsizlik Şurasının" rəhbəri vəzifəsindən azad olunub. Qeyd etdiyimiz kimi, bu şəxs yenidən Araik Arutunyan tərəfindən sözügedən "vəzifəyə" təyin edilib.

Daha bir xatırlatma edərək diqqətə çatdıraq ki, Vitali Balasanyan 1990-cı illərin əvvəlində Əsgəran rayonunda yaradılan "özünümüdafiə qüvvələrinin" komandiri olması ilə yanaşı, həm də quldur rejiminə "müdafiə nazirliyi" edib. Balasanyan 2016-cı ildə baş verən Aprel döyüşlərində də yaxından iştirak edib. O, əvvəlki "prezident" Bako Saakyanın rəqibi olub və 32,5% səs toplayıb.

### Mointe Melkonyanı Vitali Balasanyan qətlə yetirib?

Vitali Balasanyanın adı daha iki böyük qalmaqlada hallanıb. Bunlardan biri də onun ötən əsrin 90-cı illərinin əvvəllərində digər erməni terrorçusu Monte Mekonyanı qətlə yetirdiyi bildirilir. Bu iddianı "dqr"in sabiq "müdafiə naziri" Samvel Babayan irəl sürmüşdü. İkinci qalmaqal isə Paşinyanın sonuncu başəbəlalı Şuşa səfəri zamanı yaşanıb. Jurnalistlər Vitali Balasanyandan son günlər cəbhədə baş verən atışmalar barədə soruşublar. Balasanyan isə Prezident İlham Əliyevlə Paşinyanın görüşünə işarə edərək "gedin onu "lift danışıqlarının" aparıcısı Paşinyandan soruşun", - deyib.

Daha bir maraqlı xatırlatma budur ki, bir neçə il əvvəl Ermənistan mətbuatına verdiyi açıqlamasında Vitali Balasanyan bildirmişdi ki, o Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırovla yaxşı münasibətlərdə olub. Onun iddiasına görə, mərhum Milli Qəhrəmanımızın işğal altında olan Ağdam rayonu ərazisindəki məzarını da dağıdılmaqdan o qoruyub. Lakin onun yalanı sonradan üzə çıxıb. Ağdam işğaldan azad edildikdən sonra Allahverdi Bağırovun məzarı demək olar ki, dağıdılıb və erməni vandalizminə məruz qalıb.

Qeyd edək ki, bugünlərdə yenidən "vəzifəyə" yiyələnmiş Balasanyan "arsaxı" Rusiyanın və Ermənistanın yardımı ilə geri qaytaracaqlarını bildirib, üləcə də bir sıra səsli-küylü qərarlar irəli sürməklə özünü gündəmə qaytarıb. 1990-cı illərdə onun Allahverdi Bağırovla birgə BMT missiyasının nəzarəti altında əsirlərin və meyitlərin dəyişdirilməsi videosuna linkə toxunmaqla, həmçinin Quarkod vasitəsi ilə baxa bilərsiniz.

*Rövşən RƏSULOV*

# "2021-ci ilin dövlət büdcəsi reallığa əsaslanır və günün nəbzini əks etdirir"

***"2021-ci ilin dövlət büdcəsi reallığa əsaslanır və günün nəbzini əks etdirmək baxımından xarakterikdir. Büdcə dövlətin iqtisadi siyasətinin prioritet istiqamətləri üzrə qarşıda duran vəzifələr əsas götürülərək hazırlanmış və bilavasitə xalqın mənafeyinə uyğun tərtib edilib". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib.***



Tahir Rzayev bildirib ki, büdcə layihəsinə əsasən üç vacib istiqamət üzrə maliyyə vəsaitlərin daha çox ayrılması dövrün tələbidir və hər bir vətəndaş tərəfindən müsbət qarşılanacaqdır. Əvvəlki illərdə olduğu kimi büdcə sosial yönümlüdür və büdcə vəsaitinin 38.9 faizi əhalinin sosial müdafiəsinə sərf ediləcəkdir ki, bu da dövlətimizin insanların sosial vəziyyətinin yaxşılaşdırılmasına göstərdiyi qayğı və diqqətin bir daha əyani ifadəsidir. Bu, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin insanların həyatının sağlamlaşdırılmasına, normal yaşayışa istiqamətləndirilmiş sərəncam və qərarlarına uyğundur və hər bir insanın ürəyindəndir.

"Vətən müharibəsi nəticəsində işğaldan azad olunmuş ərazilərin bərpası və yenidənqurma işlərinin aparılması, vətəndaşlarımızın öz ata - baba yurdlarının qayıdışının təşkili ilə əlaqədar büdcədən 2.2 milyard manat vəsaitin ayrılması başa düşüləndir və əlbətdə ki, imkan daxilində bu vəsait daha da artırılmalıdır. Ölkənin müdafiəsinin və təhlükəsizliyinin təmin olunması üçün büdcə vəsaitinin əvvəlki ilə nisbətən 31.1 faiz artırılması çox vacibdir və bilavasitə vətəndaşlarımızın təhlükəsiz yaşayışına, sərhədlərimizin hərtərəfli qorunmasına zəmanətdir. Sözsüz ki, dövlət büdcəsində vacib olan digər sahələrdə vəsaitlərin artırılması nəzərdə tutulub ki, bu da iqtisadiyyatımızın davamlı inkişafda olduğunun bir göstəricisidir. Bu əlbətdə ki, 2021 - ci ildə Azərbaycanda bərpa və yenidənqurma işlərinin daha sürətlənməsinə, əhalinin sosial vəziyyətinin yaxşılaşmasına, ölkənin müdafiə qüdrətinin möhkəmlənməsinə imkan verəcək",-deyə komitə sədri vurğulayıb.

# Ermənistanda etirazçılar kütləvi şəkildə həbs edilir



Задержания ... у здания парламента Армении

Kütləvi həbslər və polislə kütləvi toqquşmalar İrəvandakı Ermənistan parlamentinin qarşısındakı etiraz mitinqindən başlayıb. SİA xəbər verir ki, bu barədə Rusiyaya məxsus Ren TV xəbər saytı məlumat yayıb, məqalə dərc edib. Məlumatda qeyd edilir ki, bu barədə Ren TV-yə İzvestiya müxbiri xəbər verib. Bildirilir ki, bir qrup Nikol Paşinyanın müxalifləri millət vəkillərinin gəldiyi hökumət binasının girişində yerləşiblər. Etirazçılara görə, onlar bu yolla xalq nümayəndələri üçün "xəcalət dəhlizi" yaradıblar.

Xatırladılır ki, İrəvandakı etiraz aksiyaları noyabrın 10-na keçən gecə Ermənistan və Azərbaycan liderlərinin Rusiya ilə birlikdə Qarabağda atəşkəs barədə razılaşma imzalamasından sonra başlayıb və müxalifət Paşinyanın imkansız lider kimi istefasını tələb edir. Kütləvi informasiya vasitələri 2008-ci ildə Paşinyanın on nəfərin öldüyü, 200-dən çox insanın yaralandığı iğtişaşların təşkilatçılarından biri olduğunu da xatırladır. Ancaq o, Ermənistanın baş naziri olduqda, ölkənin keçmiş prezidenti Robert Koçaryanın rəhbərlik etdiyi keçmiş səlahiyyətlər bu işə qarışdırılıblar. Koçaryan isə özü barəsində ittihamları saxta adlandırıb. Qeyd olunur ki, 16 noyabr tarixində Ermənistan prezidenti Armen Sarkisyan hakimiyyəti milli razılıq hökumətinə ötürməyin və yeni parlament seçkiləri keçirməyin lazım olduğunu bildirib.

*İnam Hacıyev*



Təhmasib Novruzov

# Qandırmaq istəyib yandıranlar

***Mənim kifayət qədər yaşım var. Və həyatın görmədiyim nəinki üzü, heç astarı da qalmayıb. Kommunist rejiminin diktaturasını da yaşamışam, bu rejimin dağılıb "yenidənqurma" adı altında "yenidənqırma" dövrünü də görmüşəm. İmperya caynaqlarından qurtulub azad dövlət uğrunda savaşı da görmüşəm, sosialist ictimai-iqtisadi sistemindən azad bazar iqtisadi sisteminə keçid dğvrünü də görmüşəm, yeni ictimai-iqtisadi sistemdə də yaşamışam.***

Ən mühümü isə, bir inqilabın, iki müharibənin canlı şahidi və iştrakçısı olmuşam.Yurd-yuvasını tərk edub məcburi köçkün həyatı yaşayan, bu mənəvi, cismani və iqtisadi əzablarla dolu yükü də daşıyan yüz minlərdən biri olmuşam. Bir sözlə, bir insanın həyatında baş verə biləcək elə ictimai hadisə yoxdur ki, bu qısa ömrümdə onu yaşamamış olum. Həm də tanıyanlar təstiq edə bilər ki, sadəcə müşahidəçi deyil, bütün bu proseslərin fəal iştrakçısı olmuşam. Yəni ictimai fəal vətəndaş olduğumu çəkinmədən deyə bilərəm. Bununla belə indiki durumda bəzi baş verənləri anlamaq üçün "xatiri-qəmmailimi" nə qədər məşğul etsəm də, anlaya bilmirəm ki, bilmirəm.Ona görə qələmi aldım əlimə, bunu yazıb oxucularımdan kömək istəmək zorunda qaldım ki, bəlkə kimsə məni qandıra bildi.

Düz iki yüz yetmiş iki il əvvəl böyük fateh Nadir Şah Əfşar dünyasını dəyişib.Elə onun vəfatından başlayaraq millətimiz parçalanmağa, bölünməyə başlayıb. Bölünə-bölünə kiçilmişik və kiçilə-kiçilə kimlərəsə qul olmağa məhkum olunmuşuq. Düz iki yüz yetmiş ildi ki, bu millət qələbə, zəfər təşnəsi ilə alışıb yanırdı. Ulularımızın bizə miras qoyub getdiyi Vətən dediyimiz torpaqlarımızın onda birində güclə öz dövlətimizi qurmağımıza rəğmən, bunu da bizə çox görənlər hay adlanan bir tayfanın əli ilə onu da parçalamq istədi. Və nəhayət millətimiz yeni bir fateh yetişdirdi. Bu fateh bizi sadəcə böyük dünya güclərinin vassalı olmaq təhlükəısindən xilas etmədi, həm də dünyanın yüz illərdir zərrə-zərrə irəli apardığı bu çirkin oyunu pozdu. Üstəlik türk dünyasının yüz illik həsrətindən sonra mənəvi bağlılığını ərazi bağlılığına qovuşdurdu. Bütün dünya güclərinin təzyiqlərinə mərdi-mərdanə sinə gərib millətini həm tarixi bəladan, həm işğaldan azad etdi və həm də millətimizin əyilmiş qürurunu dikəltdi. Tarixdə mənsub olduğu xalqa, lideri olduöu bir məmləkətə iqtidarı dövründə bu qədər tarixi xidmətlər göstərən şəxsiyyətləri barmaqla saymaq olar. Hələ iqtidarda olduğu on yeddi il ərzində ölkəsini iqtisadi, hərbi, mədəni, sosial, müasir texnologiyalar, tikinti-abadlıq işləri baxımından həndəsi silsilə ilə irəli aparmasını demirəm.Bütün bunları kimsə görmür və eşitmirsə, deməli kor və kardı. Görüb eşitməyənlər isə nankor və "nankar"dı. Elə demək istədiyim də bu nankorlar və "nankar"lara aiddir. Oturub qəşəng-qəşəng kreslolda, üçdə alacaqları, beşdə verəcəkləri olmayan "beş eşşəkli xoca" kimi millətə dərs verən bu nankor və "nankar" yığnağı adamlara nəyi qandırmağa çalışır, bax onu anlamaqda zorlanıram. İnsafən, bəzi siyasilərimiz müxalifət olsalar da, obyektivlikdən uzaq düşmürlər və problemlərə diqqət cəlb etməklə yanaşı ölkə başçısının tarixi zəfərini də gözardı etmirlər. Amma bəzi özünü-sözünü bilməyənlər, bir qismi Bakıdakı küləfirəngisində, bir qismi də dünyanın müxtəlif qütblərində oturub, bəlkə də uzanıb(!), yenə ağızlarına gələni söyləyirlər.

Sən demə bu qələbəni Azərbaycan ordusu yox, rus ordusu qazanıb, bağışlayıb bizə! Lənətə gələsən kor şeytan. Bilmirəm bundan da böyük şərəfsizlik eşidən ya görən olubmu? Yüz illərdi ermənini dünyanın hər yerindən yığıb Azərbaycan torpaqlarına dolduran, burda onlara qondarma dövlət yaradan bir imperiya erməndən torpaqları alıb verib bizə. Bişmiş yox e, bişməmiş toyuğun da gülməyi tutan bu fikri səsləndirənlər kimə, nəyi qandırmaq istəyirlər? Əvvəla, əgər belədirsə də (baxmayaraq ki, bunun belə olması ehtimalı sıfırdır), bu da Azərbaycan liderinin qüdrətli diplomatiyasının təntənəsi kimi təqdir olunmalıdır ki, iki yüz ildi bizi sorub qanımızı içən bir imperiyanı bu addımı atmağa vadar edib. Yəni onların bu dedikləri də əslində ölkə başçısı üçün minus yaradacaq bir məqam deyil. Ancaq axı bu deyimi ilə bu zatıqırıqlar minlərlə şəhidlərimizin, qazilərimizin, ümumən Azərbaycan əsgərinin qüdrətini kiçiltmiş olur. Bunun fərqində deyilmi bunlar?

Xülasə, ona görə yazıya başlıq da bu qandırmaq istəyənlərlə bağlı qoydum. Bunlar kimlərisə qandırmaq istəyirlər. Amma özləri də qanmırlar ki, əslində qandırmaq istəyərkən yandırırlar. Kimi, yaxud nəyi deyə soruşsanız cavabı da var: təbbi ki, özlərini!

# Planet format olunur? - İnsanlarla nə edəcəklər?

***Gələn il Dünya İqtisadi Forumunun (World Economic Forum) 50 illiyi qeyd olunacaq. Forum İsveçrənin Davos şəhərində keçirilən dünya siyasi elitası və tanınmış iş adamlarından ibarət toplantıdır. Forumun yaradıcısı və 50 ildi rəhbəri olan Klaus Şvabdır. Klaus Şvab iqtisadçıdır, Cenevrə universitetinin professorudur. 2020 ci ilin may ayında Klaus Şvab Böyük Britaniya şəhzadəsi Carlzla video konfrans zamanı "böyük sıfırlama" (The Great Reset) termininin adını çəkərək müzakirəyə çıxardıblar.***

Əsas mənası, kapitalizm ciddi böhran keçirir, kapitalizmi yenidən qurmaq lazımdır. Koronavirus pandemiyası, sərt karantin rejimi bunun üçün ideal şansdır, və sərt karantin rejimini bacardıqca uzatmaq lazımdır.



İyun ayında DİF-in saytında The Great Reset səhifəsi açıldı. Dərhal bu mövzu siyasi elitalar və milyarderlər arasında tərəfdarlar topladı. Co Bayden, Boris Conson, Castin Tryudo, nəhəng korporasiyalar: Amazon, Apple, Google, Facebook, Micrasoft bu "planın" tərəfdarları olduqlarını bildirdilər. İyul ayında Klaus Şvab fransız iqtisadçı Tyer Malle (sol meyilli futuroloq) ilə birlikdə həmmüəllif olduqları "Covid-19: Böyük Sıfırlama" ("Covid-19: The Great Reset") adlı kitab dərc etdilər. Milyarderlər klubunun rəhbərinin yazdığı kitab böyük maraqla qarşılandı. Kitabın əsas ideyası bunlardır:

-Birincisi, COVID-19"unikal imkanlar pəncərəsidir. Bu pəncərə vasitəsiylə bəşəriyyəti gələcəyə aparmaq lazımdır. Keçmiş düzənə qayıdış olmamalıdır! Sitat: "Bəziləri soruşur ki, biz nə vaxt normal yaşama geri qayıdacayıq? Cavab çox qısadır: Heç vaxt! Bizim tarix 2 yerə bölünüb- koronavirusdan əvvəl və sonra"

- İkinci, "parlaq gələcək"də dünyada kasıb və varlı ölkələr arasındakı fərqlər yoxa çıxacaq, bir müddətdən sonra isə dövlətlər arasında sərhədlər də yoxa çıxacaq. Yeganə planetar dövlət yaranacaq. Şvab yazır: "Sərt karantin rejimində insanlar evdə oturur, onların ailə bağları möhkəmlənir, dost və ailə üzvlərimizi daha çox sevməyə başlayırıq. Lakin bunun əks effekti də var. Əks effekti odur ki, insanlarda patriotik, milli və etnik hisslər, həmçinin dini hisslər inkişaf etməyə başlayır. Bu isə faciə olu bilər..." Şvab demək istəyir ki, etnik mənsubiyyətə və dinə müharibə elan olunacaq.

- Üçüncüsü, yeni dünya düzəninin iqtisadiyyatı nəhəng monopolistlərin əlində mərkəzləşməlidir. Şəxsi mülkiyyət qavramı öləcək, onun yerini "paylaşım iqtisadiyyatı" (sharing economy) tutacaq. Nəğd pul tədavüldən çıxacaq, yerinə isə rəqəmsal valyuta tətbiq olunacaq.

- Dördüncü, "yaşıl" enerji istifadəsinə keçid baş verəcək. Su, elektrik enerji istifadəsinə, həmçinin bəzi zərərli qidalara (məsələn ət), zərərli icadlar (məsələn maşın) üçün limit tətbiq olunacaq. Ən radikal addım isə insanların sayını, demoqrafik inkişafın qarşısını almaq olacaq. Sitat: "Nə qədər çox demoqrafik inkişaf (əhali artımı) olacaqsa, bir o qədər də çox yeni pandemiya riskləri olacaq".

- Beşinci, iş yerlərinin robotlaşdırılmasına tam keçid olacaq. Ümumiyyətlə, iş yerlərinin azalmasına aid kitabın çox yerində danışılır. Sitat: "2035-ci ilə qədər restoranların 86%-də iş yerləri avtomatlaşdırılacaq, ticarət sektorunda 75% iş yerləri, əyləncə sektorunda isə 59% iş yerləri robotlaşdırılacaq. Sərt karantin qaydalarına, sosial məsafə qaydalarına görə restoranların 75% müflisləşəcək. Heç bir müəssisə, heç bir sektor bundan qaca bilməyəcək." İşsiz qalan insanlar üçün baza gəliri tətbiq olunacaq, lakin bunun üçün o insan peyvənd (vaksin) vurdurduğunu sübut etməlidir.

- Altıncı, bütün sferalarda, iqtisadiyyatın bütün sektorlarında rəqəmsallaşma tətbiq olunacaq. Texnoloji vasitələrlə insanların üzünü tanımaq, onların hərəkətlərini, yer dəyişmələrini total şəkildə kontrol edilməsi üçün effektiv kontrol sistemi yaradılacaq. Sitat: "Pandemiyaya son vermək üçün, ümumdünya rəqəmli kontrol şəbəkəsinin yaranması zəruridir".

- Yeddinci, yeni səhiyyə modeli yaranacaq. Yeni modelə əsasən insanlar müntəzəm test olunacaq, peyvənd (vaksin) vacib olacaq. Peyvənddən qaçan insanlar üçün inzibati cəzalar və məhdudiyyətlər tətbiq olunacaq. Peyvənd olunanlara sanitar pasport veriləcək.

- Səkkizinci, transhumanizm ruhuyla insan daha da güclü "təkmilləşəcək".

Yuxarıda adı çəkilən, 83 yaşlı "milyarderlər klubunun" rəhbərinin yazdığı kitabı, ideyanı bir çox qlobalist korporasiyalar, siyasi elitalar dəstəkləyir. Demək olar ki, qlobalistlər artıq ümumdünya "yeni dünya düzəni" siyasətlərini açıq şəkildə elan ediblər. Yaşayaq görək, bəşəriyyət bunlara adekvat nə cavab verəcək.

***Elçin***



# Paşinyanın arvadı növbəti dəfə sosial şəbəkələrdə "topa tutuldu"

***Ermənistanın baş naziri Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyan növbəti dəfə sosial şəbəkələrdə tənqid obyekti olub. Azvision.az xəbər verir ki, Akopyan İkinci Qarabağ müharibəsi zamanı öldürülmüş hərbçi Vazgen Ohanesyanın ailəsini ziyarət edib. Ziyarətdən sonra sosial şəbəkələrdə paylaşılan fotolar ermənilərdə qıcıq doğurub.***

Onlar daha çox Anna Akopyanın hər dəfə ölən əsgərlərin ailələrini ziyarət zamanı gülər üzlə, toy geyimləri ilə diqqət çəkməsini müzakirə ediblər. Kimisi Akopyanın məşhur "ERATO" dəstəsini xatırladıb, kimisi rəhbəri olduğu fondun əsgər ailələrinə yersiz yardımlarını və digər nöqsanlardan söz açıb. Erməni ekspert Aram Gevorqyan isə "Facebook"da bu barədə paylaşım edərək baş nazirin arvadını sərt şəkildə tənqid edib.

# Fransa parlamentarilərinin öz gözündə tiri görməməsi böyük faciədir

***Ermənilər heç də iddia etdikləri kimi məzlum və yazıq xalq deyillər. Ermənilərin kim olduğu fransız yazıçısı Aleksandr Dümanın dilindən: "Ermənilər xəstə millətdir... erməni xəstəliyi erməni toplumunun varlığı qədər əbədidir". Böyük Dümanın həqiqəti əks etdirən bu fikirlərindən təəssüf ki, Fransa prezidenti Makron dərs götürməyib.***



Terroru, separatizmi, işğalçılığı dövlət siyasətinin əsası kimi götürən Ermənistanı dəstəkləməkdə davam edir. General Şarl de Qollun ölümündən sonra Fransada 1969-1974-cü illərdə prezident olmuş Jorj Pumpido deyirdi: "Şarl de Qollun vəfat etməsi ilə Fransa sanki dul qaldı". O zaman bəlkə də heç kim J.Pumpidonun bu tezisinin ciddiliyinə varmadı və nə üçün bu siyasətçinin belə düşündüyünü sual etmədi. Amma zaman göstərir ki, dünən Sarkozi, bu gün Makron kimilərin yönləltdiyi Fransa siyasəti həqiqətən başsız, bir qrup siyasət dəllalının əlində əsir-yesir qalıb. Beynəlxalq hüququn norma və prinsiplərinə əsasən, hər bir dövlət, beynəlxalq təşkilat digər ölkənin ərazi bütövlüyünə hörmətlə yanaşmalıdır. ATƏT-in Minsk qrupunun həmsədri kimi Fransa Ermənistanla Azərbaycan arasında neytral mövqe tutmalı olduğu halda hər zaman ermənipərəst mövqe nümayiş etdirib.

Sentyabrın 27-də Ermənistanın davamlı təxribatları nəticəsində başlanmış İkinci Qarabağ müharibəsi zamanı isə Fransa ermənipərəst mövqeyini daha açıq şəkildə ortaya qoydu". Fransa prezidenti Emmanuel Makron hərbi əməliyyatların dayandırılması, Azərbaycana qarşı beynəlxalq rəy formalaşdırılması və cəza tədbirləri həyata keçirilməsi məqsədilə ciddi səylər göstərdi. Fransa XİNi ardıcıl şəkildə bəyanatlar verərək Ermənistanın işğalçılıq siyasətini dəstəkləyib. Ermənistanın bu biabırçı məğlubiyyətindən məyus olan Fransa rəhbərliyi indi də mövcud olmayan qondarma bir qurumu tanımağa cəhd edir. İstər Paris meriyasının təxribatçı hərəkəti olsun, istər prezident Makronun, istərsə də Fransa XİN və digər rəsmilərin mövqeyi onu deməyə əsas verir ki, hazırda Fransanın Azərbaycana münasibəti tamamilə qərəz və açıq düşmənçilik üzərində qurulub. Çünki erməni lobbisinin ciddi təsiri altında olan Fransa hökuməti, eləcə də prezident Makron ermənilərin dəstəyini əldə etmək üçün müharibə dövründə işğalçı ölkəyə siyasi, iqtisadi və hərbi dəstək göstərib. Fransanın hərbi kəşfiyyatı davamlı şəkildə əldə etdiyi məlumatları Ermənistana ötürüb, Fransadan Ermənistana raket sistemləri də daxil olmaqla silah-sursat göndərilib. Əldə olunan məlumatlara görə, Fransa ən yüksək səviyyədə Ermənistan hakimiyyətinə Azərbaycanın münaqişədə üstünlük əldə etməsinə imkan verməyəcəyini vəd edib.

Lakin göründüyü kimi, Fransanın bu dəstəyinin, vədlərinin heç bir nəticəsi olmadı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu işğal altında olan torpaqları azad etdi və heç bir qüvvənin tarixi ədalətin bərpa olunmasına əngəl törətmək gücündə olmadığını bütün dünyaya göstərdi. Makron dövlət başçısı kimi fəaliyyətə başladığı ilk gündən Fransanın ATƏT-in Minsk qrupunun həmsədri mandatının mahiyyətini yalnız Ermənistanın maraqlarını müdafiə etmək kontekstində anlayıb və indiyədək məhz buna uyğun hərəkət edib. Makronun açıqlamaları və fəaliyyəti bir daha onu göstərir ki, Fransa indiyədək Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli prosesində balanslaşdırılmış, ədalətli, həmsədr mandatının tələblərinə uyğun heç bir addım atmayıb və bundan sonra da qeyri-adekvat mövqe nümayiş etdirmək niyyətini açıq-aydın ortaya qoymaqdadır. Bir daha isbatlanır ki, Fransa prezidenti bu ölkənin erməni lobbisinin, ermənipərəst dairələrinin tam təsiri altındadır və rəhbərlik etdiyi dövlətin, Fransa xalqının maraqlarının əksinə olaraq, məğlub Ermənistanın "vəkili" kimi çıxış edir. Fransa diplomatları Avropa paytaxtlarında Ermənistanın xeyrinə iş aparıb, bu fəaliyyəti indi də davam etdirdikləri halda, bu gün Fransa müxtəlif Avropa dairələrində Azərbaycanın mənfi imicinin formalaşdırılması istiqamətində fəal addımlar atır. Ermənistanın "Qraparak" nəşrinin yaydığı məlumata görə, Fransa prezidenti Emmanuel Makron müharibə vaxtı Paşinyana SMS-mesajlar göndərdiyini etiraf edib. Əslində, Makron bununla qatı erməniperəst mövqeyini bir daha təsdiqləyib. Məlum olub ki, noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri kapitulyasiya barədə məlum sənədi imzaladıqdan bir neçə gün sonra Fransa prezidenti Emmanuel Makron erməni icmasının nümayəndələri ilə naharda iştirak edib və bəyanatı imzaladığına görə Paşinyanı qınayıb. Görünür, Ermənistan baş nazirinin bu bəyanatı imzalaması ermənilərdən daha çox Makronu yandırıb-yaxıb. Belə olmasaydı, deməzdi ki, Paşinyan bu sənədi imzalayanda niyə onunla əlaqə saxlamayıb və bu sənəd barəsində onu məlumatlandırmayıb. İşğalçı Ermənistan ilə işğala məruz qalan Azərbaycana Fransa prezidentinin beynəlxalq hüququn norma və prinsiplərinə zidd bəyanatı onu göstərir ki, bu ölkə Minsk qrupunun həmsədri funksiyasını yerinə yetirmək funksiyasını çoxdan itirib. Fransa 27 sentyabrdan bugünədək yüksək səviyyədə səslənən bəyanatlar verməklə Ermənistana birmənalı dəstək ifadə edən addımları ilə münaqişəyə münasibətdə neytral mövqedən çıxış etmədiyini artıq sübut edib. Artıq Makronun iç üzü, erməniрərəst mövqeyi və ATƏT-in Minsk qrupunu erməniseverliyinə qurban verməsi bəlli olub. Ermənilər heç də iddia etdikləri kimi məzlum və yazıq xalq deyillər, onlar Xocalıda dinc azərbaycanlıların soyqırımını törədiblər. Gəncə və Bərdə şəhərlərində mülki vətəndaşlara qarşı qadağan olunmuş ballistik raketlərdən istifadə ediblər ki, uşaq və qocalar da daxil olmaqla 100-ə yaxın mülki vətəndaş həyatını itirib. Bu gün fransızların "Afrika soyqırımı", dost, qardaş saydıqları Ermənistanın Xocalıda törətdikləri soyqırımı hadisələri elə də uzaq keçmişdə qalmayıb. Bu gün digər dövlətlərə demokratiya dərsi keçən, insan hüquq və azadlıqlarını kobud şəkildə pozan Fransa parlamentarilərinin öz gözündə tiri görməməsi böyük faciədir. Ona görə Fransa parlamenti yanlış qərarlar qəbul etməkdənsə, ermənilərin yaxın tarixdə azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımı cinayətlərinə münasibət bildirməsi bu ölkənin siyasi dairələrinin həqiqətən səmimi olduğunu nümayiş etdirərdi.

***Şəmsiyyə Əliqızı***

TƏRS BAXIŞ

# Sülh məramsızları:
## son proseslər bu cür qənaətə gətirir!
### Yaxud, düşmən yenidən quduzlaşıb və onun burnu yenidən ovulmağa məhkumdur

***Qarabağda 44 gün davam edən zəfər yürüşünün ardınca dizə gələn, rüsvayçı kapitulyasiya sənədinə imza atan Ermənistan rəhbərliyi və "dqr" marionetlərinin deyəsən yavaş-yavaş "buynuzları" çıxmağa başlayıb. Söz yox ki, bu cür "buynuzçıxarmalar" heç də erməni tərəfinin özünəgüvənlərindən irəli gələn hal deyil. Bu, ilk növbədə üçtərəfli bəyannamə əsasında əldə olunmuş atəşkəsin (sülh razılaşması ilə səhv salınmamalıdır - R.R.) məhz atəşkəs razılaşmasının nəticəsidir ki, həmin bəyannaməyə görə ermənilərin dadına növbəti dəfə yenə də ruslar çatdı.***






Əgər bu gün məğlub Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycan üçün nəzərdə tutulan Zəngəzur dəhlizinin əvəzinə Naxçıvandan yol istədiyini həyasızcasına deyirsə, Araik Arutunyan "dqr"də vəzifə təyinatları həyata keçirirsə, yaxud quldur rejimin "təhlükəsizliyini" təmin edən Vitali Balasanyan açıq-aşkar "artsaxın" Ermənistanın və Rusiyanın dəstəyi ilə geri qaytarılacağını bəyan edirsə, Hadrutda, Xocavənddə və Rusiya sülhməramlı kontingentinin nəzarətinə verilmiş digər ərazilərdən sızaraq Azərbaycan əsgərinə tərəf terrorçu silahı tuşlanırsa (sabah həmin silah mülki vətəndaşlarımıza da tuşlana bilər), Laçın dəhlizində rusların gözləri önündən Ermənistana aid hərbi texnikalar keçirsə - bütün bunların təməlində şübhə deyil, reallığın dayanması artıq faktdır!

**Məgər təkcə bu faktın özü rus kontingentinin bilavasitə erməni maraqlarına xidmət etməsini sübut etmirmi?**

Artıq o da yavaş-yavaş məlum olmağa başlayır ki, Rusiya sülhməramlısı, sadəcə, rəsmi status daşıyırlar, gerçəklikdə, əməli fəaliyyətdə isə ortada "sülh məramı" adı altında sülh məramsızlığı dayanmaqdadır. Bunun isə kökü Kəlbəcərin, Ağdamın, Laçının boşaldılması zamanına gedib söykənir. Xatırlayırsınızsa, həmin ərəfələrdə Azərbaycandan əlavə vaxt istəyən ermənilər bu vaxt ərzində öz kirli, idbar əməllərini davam etdirdilər - illər boyu işğal etdikləri azərbaycanlıların evlərinə od vurdular, ağacları baltaladılar, meşələri yandırdılar, özü də məhz Rusiya sülhməramlılarının gözləri önündə. İndi davam edən prsoeslər də həmin məsələlərin təməlinə söykənir. Ən adi bir detala diqqət yetirək: nəyə görə Azərbaycan vətəndaşı Kəlbəcərdə yerləşən və tariximizin incisi sayılan Xudavəng alban monastırına rahat şəkildə gedə, oranı ziyarət edə bilmir, yaxud rus sülhməramlılarının rəsmi icazəsini almalı olur, amma ermənilər həmin monsatıra rahat qaydada gedir, üstəlik, nikah və s. mərasimlərini həyata keçirirlər. Üstəlik, bu da azmış kimi, azərbaycanlıların nəinki monastırın ərazisinə, eləcə də daxilinə girməsinə qadağalar qoyulur - Azərbaycan torpağında! Məgər təkcə bu faktın özü rus kontingentinin bilavasitə erməni maraqlarına xidmət etməsini sübut etmirmi?



**Belə davam edərsə, qarşıya növbəti problemlərin çıxacağını, ya da qəsdən yaradılmasını da istisna etmək olmaz!**




Məgər bu gün Qarabağdakı quldurlar dəstəsinin rəhbərləri yenidən hədyan tipli bəyanatlar səsləndirirlərsə, bu imkanı onlara yaradan da rus kontingenti deyilmi? Rusiya sülhməramlıları nəyə görə yalnız ermənilərin məskunlaşdığı ərazilərə gün ərazində yüzlərlə mənşəyi bilinməyən "mülki" şəxsləri kütləviliklə həmin ərazilərə doldurmaqla məşğuldur? Bəs Xocalıdan, elə Xankəndinin özündən, eləcə də digər ərazilərimizdən erməni işğalı, terroru nəticəində qaçqın və məcburi köçkün düşmüş azərbaycanlıların taleyi ilə hansı səbəbdən maraqlanmırlar? Suallar açıq qalmaqda davam edir və belə davam edərsə, qarşıya növbəti problemlərin çıxacağını, ya da qəsdən yaradılmasını da istisna etmək olmaz!

Düzdür, bəzi məsələlərdə bildirilir ki, Rusiya prezidenti Vladimir Putin Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu bəyan edir, amma bu bəyanatın kökündə səmimiliyə necə inanmaq olar?

**Azərbaycan xalqı arasında böyük nüfuza malik, həm də səmimi dostumuz hesab edilən Maksim Şevçenkonun bugünlərdə səsləndirdiyi bir fikrini xatırlatmaq yerinə düşərdi...**

Tanınmış Rusiya jurnalisti, Azərbaycan xalqı arasında böyük nüfuza malik, həm də səmimi dostumuz hesab edilən Maksim Şevçenkonun bugünlərdə səsləndirdiyi bir fikrini xatırlatmaq yerinə düşərdi. O, bildirir ki, Putin həmin bəyanatı səsləndirir, amma Rusiya dövlətinə, Kremlə bağlı telekanallarda Xankəndi açıq-aşkar tanınmayan "Dağlıq Qarabağ Respublikası" adlandırılır, üstəlik "stepanakertin" (Xankəndinin) "dövlət strukturlarının" fəaliyyəti barədə söhbətlər aparılır, rus sülhməramlıları ilə qarabağlı ermənilərin arasındakı səmimilik reklam edilir. Hətta məktəblərdə Rusiya Federasiyasının bayrağı ilə "dqr"in əski parçası yanaşı qoyulur (?!) Məgər bu faktın özü də bəlli nəticələrə gəlməyə zəmin yaratmırmı? Və ya rus sülhməramlılarının, əslində, yumşaq desək, sülh məramsızları olduğunu isbatlamırmı? Bu xüsusdan çıxış edən Şevçenko erməni poliqoloqu İskəndəryanın proqnozunu da mümkün hesab edir. O bildirmişdi ki, proseslər üçüncü Qarabağ müharibəsini qaçılmaz edir!

**Çətin və kifayət qədər mürəkkəb bir proses olmasına baxmayaraq, qardaş Türkiyə silahlı qüvvələrinin ölkəmizdə, xüsusilə Qarabağa gəlişinə yol açıqdır**

Yeri gəlmişkən, gündə rəsmi məruzələrində ermənilərin yaşadıqları anklav ərazilərin xəritəsində hətta bir kəndin yarısını belə nəzarət etdikləri ərzilərə qatmaq, ardınca isə onu ictimailəşdirmək planlarını necə başa düşmək olar?

Bu gün haqlı olaraq suallar qüvvəsində qalmaqdadır ki, hansı səbəbdən Türkiyə sülhməramlı kontingentinin Azərbaycana gəlişi gecikir? Əslində, bu sualın özündə də siyasi məqamlar dayanır və əsasən Cənubi Qafqaz regionunun nəzarətdə saxlanılması amili daha çox önə çıxmağa başlayır. Çətin və kifayət qədər mürəkkəb bir proses olmasına baxmayaraq, qardaş Türkiyə silahlı qüvvələrinin ölkəmizdə, xüsusilə Qarabağa gəlişinə yol açıqdır və həmin prosesin tezliklə reallaşdırılacağına da şübhə etmək olmaz. Sadəcə, bu məsələdə də məlum rus sədinin dayanması gerçəklikdir, amma indiki dünyada hər şey dəyişir və müasir siyasi texnologiyalar, strategiyalar imkan verir ki, Türkiyə - qardaş ölkə olaraq bu məsələdə də qısa müddətdə Azərbaycanlı qardaşlarının yanında olacaq. Əslində yanındadır, çünki bu gün hərbi strateji tərəfdaşımız olan Türkiyənin hərbi heyətinin bir hissəsi Azərbaycandadır və qısa müddətdə gözlənilməyən anda hərəkətə keçmək gücünü saxlamaqda davam edir.

Beləliklə, hadisələr bir-birini tez-tez dəyişir və Qarabağımızda 44 gün ərzində düşmən tapdağından azad edilən ərazilərimizlə yanaşı, yerdə qalan hissəsinin də birdəfəlik təmizlənməsi prosesinə start verilə bilər. Artıq bu proqnozların işartıları görünməyə başlayır və rus sülhməramlılarının gerçəkdə sülh məramsızları, hətta təhrik məramlı addımları da bu cür nəticələr hasil edir.

**Rövşən RƏSULOV**

# Vətən daşına dönük çıxanlar...

***Deyir, Vətən bir millətin üzərində yaşadığı coğrafiyadır. Torpağı vətən edən millətin onda yaşadığı tarix, onunla qurduğu mədəniyyət əlaqələridir. Vətən millətin doğulduğu, doyduğu, sığındığı və maddi-mənəvi varlığını davam etdirdiyi yerdir. Vətən millətin evi, millət də vətəndə yaşayan ailədir. Vətən bizi qoruyan anadır.***

Çünki biz onun sayəsində inkişaf edir və yetkinləşirik. Vətən gözümüzün dünyada ilk gördüyü torpaqdır. Bəs dünyaya bu torpaqda göz açan, bu torpağa sıcınan, özünü "azərbaycanlı" sayan, bu vətənin "vətəndaşı" niyə vətən daşına dönük çıxır? Böyük şairimiz Məmməd Araz dediyi kimi: "Vətən daşı olmayandan, olmaz ölkə vətəndaşı!".



Ancaq bu gün "ermənidən betər" olan, niyyət və əməli daha çox Azərbaycanda daxili sabitliyi pozmağa yönələn, fəaliyyəti ilə hər zaman ölkəmizin nüfuzunu zədələməyə çalışan ifrat dağıdıcı müxalifət əslində, antiazərbaycançı şəbəkənin bir təmsilçisi kimi çıxış etdiyini istər-istəməz faş etməkdədir. Bu aksiomadır ki, erməni xüsusi xidmət orqanlarına xidmət edən hər kəs, şübhəsiz ki, Azərbaycanın düşmənidir. Bu yerdə ermənilərin dostları ilə dostluq edən "Milli Şura"çılar kimdir? Nə araşdırmaq lazımdır, nə də fikirləşmək. Cavab bəllidir. Çünki Vətən daşına dönük çıxanlar bu ölü qurumda toplaşıb. Ancaq bu gün istər Əlisi, Cəmili, İsası, Arifi, Gültəkini... və bu kimi satqın və əxlaqsızlar Azərbaycanda xaotik bir durumun formalaşmasını arzulasalar da, arzuları elə bir daşa dəyir ki... sonda xalqın nifrətinə düçar olurlar.

Bu gün özünü "qazi" adlandıran Tofiq Yaqublu kimilərin ortaya düşərək, Azərbaycan xalqının Vətən Müharibəsindəki qələbəsi ilə bağlı böhtanlı sözlər deməsi, doğurdan da böyük şairimizin dediyi kimi, belələri Vətən qədrini bilməzlər. Bu artıq sağalmayan siyasi xəstəlikdir. Bu siyasi xəstəlik illərdir ki, vətən satqınlığı ilə müşayiət olunur.

Çünki illər idi ki, sevimli Qarabağımız düşmən tərəfindən işğala məruz qalmışdı. Odu-ocağı yağmalanmış, torpağı talanmış Qarabağımızın həsrəti qəlbimizi göynədirdi. Azərbaycanımızın üzük qaşı, konservatoriyanın beşiyi sayılan Şuşamızda, bütünlüklə ata-baba torpaqlarımızdı murdar düşmən-"yanlar" gəzirdi. Qarabağımız dardadır, bizi səsləyir, bizi gözləyir, bizdən kömək diləyir. Bu torpaq yad əlləri, yad nəfəsləri, yad dilləri qəbul etmir. Çünki bu toropaqlar paklığı sevir, müqəddəsdir!. Bu torpaq "Vətən" kəlməsinə həsrət idi. Biz də bu ulu torpağın həsrətindəydik.

Bu gün bu Vətən Müharibəsinin qələbəsini qanmayanlar bir daşa anlamalıdırlar ki, Qarabağ bizimdir!, Qarabağ Azərbaycandır! Çünki Azərbaycan haqq yolundadır, bütövlüyümüzün bərpası uğrunda vuruşurduq!. Bir daha dünyaya sübut etdik ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev dəmir yumoruğu ilə bərkiyən siyasəti qarşısında acizdir: "Yaxşı, biz indi öz gücümüzə güvənərək bu torpaqları şəhid verəvərə, qan tökə-tökə azad edirik, bizə "dayanın" deyirsən, ona de ki, çıx. Demir. Bizə deyir dayan. Dedim dayanmayacağam mən. Heç kim məni dayandıra bilməz və dedim tələb edirəm səndən Paşinyan, şəxsən özün, sənin xarici işlər nazirin, nə bilim o biri, bu biri yox, şəxsən özün öhdəlik götürməlisən, tarix verməlisən nə vaxt rədd olursan bizim torpaqlarımızdan. Bax bu bəyanatda o öhdəlik var.

Məcbur edirik onu, məcbur etdik, zorla məcbur etdik, başına vura-vura məcbur etdik, bütün bəd əməllərinə görə, o donuzları bizim məscidlərimizdə saxladığına görə. Bizim məscidlərimizdə donuz saxlayan özü donuzdur. İndi bu sənəddə öhdəlik var. Dekabrın 1-nə qədər rədd olacaq qalan işğal edilmiş torpaqlardan. Ona görə məsələnin hərbi yolu var. Amma mən deyirdim, istəyirəm ki, bu hərbi mərhələ də dayansın, keçək siyasi mərhələyə. Nə oldu? Mən deyən oldu. Bax, bu gün mən deyən oldu.

Hərbi mərhələ başa çatır, keçirik siyasi məsələyə. Deməli olar ki, bizə maksimum sərf edən sənəd imzalandı. Paşinyan onu imzaladı. Başqa yolu yox idi. Əslində, bu, məğlubiyyətin etirafıdır. Bu, hərbi kapitulyasiyadır. Prinsip etibarilə mən tələb edə bilərdim ki, gəlsin otursun orada, aşağıda, bax orada imzalasın onu. Amma mən belə adam deyiləm. Mən nə üçün kimisə alçaldım. O onsuz da özünü alçaldıb. Bu rəzil duruma özü-özünü salıb. Gərək orada qarnını qabağa verib, sərxoş vəziyyətdə Cıdır düzündə rəqs edəndə bu günü fikirləşərdi ki, gün gələcək hesabını verəcəksən, verirsən. Bax belə. Heç kim bizimlə zarafat edə bilməz. Heç kim Azərbaycan xalqının səbri ilə oynaya bilməz. Heç kim bizi təhqir edə bilməz. Edərsən, dərsini alarsan. Necə ki, dərsini vermişik".

**Bəli, bundan sonra da özgəsinin torpağına göz tikənlərin dərslərini verəcək, bizim canavar kimi üstünüzə şığıyan dəmir, cəngavər, qoxmaz əsgər və zabitlərimiz. Bu gün bu torpaqları satan AXCP-Müsavat, daha nə bilim**

Ortada meymun kimi oynadılan "Milli Şura" kimi erməni yalaqları bilməlidirlər ki, Qarabağ Azərbaycandır" nöqtəyə Qarabağ Azərbaycandır! Çünki bu yol haqq yoludur, birliyimizin yoludur! Bu yol Azərbaycanımızın ərazi bütövlüyü yoludur, ədalət yoludur, həmrəylik yoludur, azadlıq yoludur!. Bu yol Xalq-İqtidar birliyinin yoludur!

Və bu gün AXCP, Müsavat və "Milli Şura"-da olan satqınlar, daha doğrusu Vətən daşına dönük çıxanlar bilməlidirlər ki, yaxın zamanlarda xalq onların da cəzasını verəcək. Bu satqınlar bir daha anlamalıdırlar ki, tarix qalibləri mühakimə etmir, həm də bu qalib haqq işi uğrunda qələbə qazanırsa!

***RƏFİQƏ***

## "Özünü radikal müxalifət adlandıranlar çalışırlar ki, Azərbaycanın möhtəşəm qələbəsini kiçiltsinlər"



Bəzi dairələr Azərbaycanın 44 günlük Vətən müharibəsində Azərbaycanın şanlı qələbəsini həmz edə bilmir. Bunu trend-ə Milli Məclisin deputatı Cavid Osmanov deyib. Deputat bildirib ki, bəzi xarici dairələr və sapı özümüzdən olan baltalar, yəni xarici dairələrə və erməni lobbisini birbaşa xidmət edənlər bütün vasitələrlə çalışırlar ki, Azərbaycanın bu böyük qələbəsini kçiltsinlər: "Bu mənada xüsusilə özünü radikal müxalifət adlandıranlar, əslində ömürlərini Ermənistana xidmət edənlər, o cümlədən Tofiq Yaqublu, Əli Kərimli kimiləri çalışırlar ki, Azərbaycanın bu möhtəşəm qələbəni kiçiltsinlər. Azərbaycan xalqının birlik nümayiş etdirərək Ali Baş Komandanımız ətrafında sıx birləşməsi özlərini radikal müxalifət adlandıranları içindəki kini, küdurəti tamailə üzə çıxardır. Bunların xidmət etdiyi erməni havadarları və erməni lobbisi bunların qarşısında tapşırıq qoyub ki, Azərbaycanın qələbəsini kiçiltsinlər.

Azərbaycan xalqı birləşib, vəhdət olub və Azərbaycanın qarşısında duran ən böyük problem olan Dağlıq Qarabağ münaqişəsi həll edilib. Yəqin Əli Kərimli də, Tofiq Yaqublu da unudublar ki, bizim 30 il əvvəl işğala məruz qalmış torpaqlarımız elə onların hakimiyyətdə olduğu zamanda itirildi.

Azərbaycan 44 günlük müharibədə Ermənistan ordusunu darmadağın etdi, dünya erməniliyinə, onların havadarlarına qalib gəldi. Ancaq Əli Kərimli, Tofiq Yaqublu kimiləri bu gün Ermənistana xidmət etdiklərini açıq şəkildə nümayiş etdirməklə Azərbaycanın haqlı qələbəsinə kölgə salmağa çalışırlar. Əlbəttə ki, Azərbaycan ictimaiyyəti onlara öz sözünü deyir, onlar artıq tarixin zibilliyindədirlər və onlar bugünki mövqeləri ilə bir daha nümayiş etdirirlər ki, Azərbaycan xalqını, dövlətçiliyini heç zaman sevməyiblər".

## "Ermənistanda "qara zolaq" dövrü başlayıb"



"44 günlük müharibə və acı məğlubiyyət Ermənistanda əsaslı sosial, iqtisadi böhrana, gərgin mənəvi-psixoloji duruma səbəb oldu." Bu sözləri SİA-ya verdiyi açıqlamasında Beynəlxalq Dialoq və İnkişaf Alyansının sədri, Azərbaycan Milli QHT Forumunun vitse-prezidenti Nüşabə Məmmədova deyib.

Alyansın sədri qeyd edib ki, bu işğalçı ölkədə daxili qarşıdurma pik həddə çatıb. "Ermənistan müxalifətinin liderlərindən olan Vazgen Manukyan İrəvanda etiraz yürüşündə çıxışı zamanı bildirdi ki, "Ermənistan hər şeyi itirməkdə davam edir. Bu ya Ermənistanın dünya xəritəsindən tamamilə yox olması, ya da heç kimin hesaba almayacağı səfil bir ölkəyə çevrilməsi ilə nəticələnəcəkdir." Oxşar fikirlər Rusiya siyasətçiləri, rəsmiləri tərəfindən də səsləndirilib. Ermənistanın hazırkı vəziyyəti Aleksandr Puşkinin acgöz yaşlı qadının hədsiz arzularından bəhs edən məhşur "Sınıq bir çuxurda qalmaq" nağılına bənzəyir. 100 il bundan öncə Azərbaycan tarixi torpaqlarında 9 min kv.km. ərazidə özünə dövlət yaradılmasına nail olan Ermənistan, öz ərazilərini Azərbaycan torpaqları hesabına artırdı və bununla da kifayətlənmədi, ikinci erməni dövlətinin yaradılması planını cizdi. Ali Baş Komandan İlham Əliyevin əmri ilə Azərbaycanın Şanlı Ordusu 44 günlük hərbi əməliyyatlarda Ermənistana həddini bildirdi. Hazırda yerlərdə sürünən Ermənistanda "Qara zolaq" dövrü başlayıb. Öz əhalisnin təhlükəsizliyini təmin edə bilməyən hökumət, parlamentarilər yeganə çıxış yolunu Ermənistanda Rusiyanın digər hərbi bazasının yerləşdirilməsini təklif edirlər. Bu dəfə Azərbaycanın yeni işğaldan azad olunan ərazilərinə yaxın sərhəddə. Ermənistan əhalisi hökumət və ya ordu tərəfindən qorunacaqlarına inamsızdırlar", deyə Nüşabə Məmmədova bildirib.

## Paşinyandan Naira Zöhrabyana zərbə: parlamentdəki vəzifəsindən məhrum edildi



Ermənistan parlamentinin növbədənkənar iclasında hakim "Mənim addımım" bloku "Çiçəkənən Ermənistan" fraksiyasının deputatı Naira Zöhrabyanı insan haqları və ictimai məsələlər daimi komissiyasının sədri vəzifəsində səlahiyyətlərinə xitam verilməsi məsələsinə baxıb. Azvision xəbər verir ki, erməni deputatlar təşəbbüsü yekdilliklə dəstəkləyib. 78 deputat Zöhrabyanın lehinə, 4-ü əleyhinə səs verib, 2 bülleten etibarsız elan edilib.

Qeyd edək ki, "Parlaq Ermənistan" və "Çiçəklənən Ermənistan" partiyaları, Naira Zöhrabyan özü parlamentin fövqəladə iclasını boykot edib. Hakim fraksiya hesab edir ki, Zöhrabyan "Facebook" hesabında Konstitusiyada təsbit edilmiş və ən yüksək dəyər olan insan ləyaqətini alçaldan, təhqir edən ifadələrə yol verib. Belə ki, Zöhrabyan öz paylaşımlarından birində "Paşinyanı hakimiyyətə gətirən zibilə" nifrət etdiyini yazıb.

Bundan sonra "Mənim addımım" fraksiyasından olan deputatlar Ermənistan vətəndaşlarına qarşı ksenofob xarakterli ifadələrinə görə Zohrabyanın insan haqları üzrə parlament komissiyasının sədri vəzifəsindən azad edilməsi barədə təşəbbüs irəli sürüblər. Zöhrabyan özü isə göstərişin birbaşa baş nazir Nikol Paşinyandan gəldiyini yazıb.

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

**30 dekabr**

QARABAĞ AZƏRBAYCANDIR!


## “Atletiko” Kostanı qovdu!

“Atletiko” klubu, futbolçusu Dieqo Kosta ilə yolları ayırıb. Madrid klubunun rəsmi saytında yer alan məlumatda deyilir ki, ispan hücumçunun istəyi ilə Madrid təmsilçisi onunla müqaviləyə vaxtından əvvəl xitam verib. Razılığa əsasən, Kosta “Atletiko”nun La Liqa və ya Çempionlar Liqasındakı rəqibləri ilə razılığa gəlsə, kluba 15 milyon avro ödəyəcək.



Qeyd edək ki, Kosta 2017/2018 mövsümündən əvvəl “Çelsi”dən “Atletiko”ya qayıtmışdı. O, bu mövsüm La Liqada 7 matçda 2 qol vurmuşdu. 32 yaşlı oyunçunun Madrid təmsilçisi ilə müqaviləsi 2021-ci ilin iyununda başa çatırdı.

## Əsrin oyunçusu: Kim nə qədər səs topladı?

Globe Soccer Awards-dan “21-ci əsrin ən yaxşı oyunçusu” nominasiyasında azarkeşlərin səsvermısinin nəticələri məlum olub. Qol.az ESPN-ə istinadən xəbər verir ki, mükafatı qazanan “Yuventus”un hücumçusu Kriştiano Ronaldo səslərin 38 faizini toplayıb. “Barselona”nın hücumçusu Lionel Messiyə respondentlərin 24 faizi səs verib. “Liverpul”un hücumçusu Məhəmmədd Salah isə 23 faiz səslə 3-cü olub.

Qeyd edək ki, Globe Soccer Awards yalnız azarkeşlərin səsi əsasında deyil, eyni zamanda futbol məşqçiləri və menecerlərindən ibarət münsiflərin rəyi nəzərə alınmaqla verilir.




## Bu il ölkəyə 48 minə yaxın avtomobil idxal olunub

Cari ilin yanvar-noyabr aylarında Azərbaycana 576 milyon 175 min ABŞ dolları dəyərində 47 min 841 avtomobil idxal olunub.



Dövlət Gömrük Komitəsindən xezerxeber.az-a verilən məlumata görə, ölkəyə gətirilən avtomobillərin 223-ü sürücü daxil olmaqla 10 nəfər və ya daha çox adam daşımaq üçün nəzərdə tutulmuş motorlu nəqliyyat vasitəsi, 44 min 278-i əsasən adamların daşınması üçün nəzərdə tutulmuş minik avtomobili və digər motorlu nəqliyyat vasitəsi, 3203-ü yük daşımaq üçün motorlu nəqliyyat vasitəsi, 137-si isə xüsusi təyinatlı motorlu nəqliyyat vasitəsidir.

## Məşhur modelyer Pyer Karden 98 yaşında öldü

***Məşhur fransız modelyer Pyer Karden 98 yaşında vəfat edib. France Press agentliyi bu barədə mərhumun ailəsinə istinadla məlumat yayıb. Modelyerin Paris ətrafındakı Amerika hospitalında vəfat etdiyi bildirilir.***



Pyer Karden (Petro Kardini) 1922-ci ildə İtaliyada anadan olub. İki il sonra onun valideynləri Fransaya köçüb. Karden 14 yaşından dərzi yanında usta köməkçisi işləməyə başlayıb. 1940-cı illərin sonlarından Kristian Diorun atelyesində işləyib və bir neçə il sonra Parisdə öz modalar evini və mebel butikini yaradıb. İlk kolleksiyasını 1953-cü ildə təqdim edib. 1970-ci ildə NASA astronavtları üçün kostyumun dizaynını hazırlayıb.

Bir sıra geyim brendlərinə, ətriyyat və kosmetika məhsullara, siqaretlərə öz adını verən Pyer Kardenin kolleksiyaları dünyanın ən böyük muzeylərində nümayiş olunub. Karden Fransada ən böyük daşınmaz əmlak sahiblərindən biri

## Ürək xəstəliyinin gözlənilməz əlaməti açıqlandı

“Blood Pressure UK” təşkilatının mütəxəssisləri ürək-damar xəstəliklərinin gözlənilməz əlamətini açıqlayıblar. Bu barədə “Daily Exress” xəbər verir. Onların fikrincə, ayaq biləyinin şişməsi yüksək qan təzyiqi riskini göstərə bilər.



Mütəxəssislər yüksək qan təzyiqinin insanın qan damarları və orqanlarında əlavə stressə səbəb olduğunu, bunun ürək əzələsinin hipertrofiyasına və qan dövranının azalmasına səbəb ola biləcəyini izah ediblər. Alimlər vurğulayıblar ki, məhz bu səbəbdən maye ayaq biləyinə yığılır və şişməyə səbəb olur.

## Türkiyəli professor: Bu ölkələrdə hazırlanan peyvəndlər etibarlıdır

Türkiyəli professor Murat Akova koronavirusun mutasiyaya uğraması səbəbindən daha çox insanın peyvənd olunmasının vacibliyini bildirib. Hacettepe Universiteti Tibb Fakültəsi, İnfeksion Xəstəliklər və Klinik Mikrobiologiya şöbəsinin üzvü Murat Akova Çində və Almaniyada hazırlanan peyvəndlərin etibarlı olduğunu söyləyib: “Hər peyvəndin tərfkibində fərqli maddələr var. Ona görə, bəzən allergik reaksiyalar yarada bilər. Ümumi götürüldükdə isə peyvəndlər etibarlıdır”.



Mütəxəssis peyvəndləmə prosesi zamanı qaydalara riayət etməyin vacibliyini də vurğulayıb.

## Avtomobildən oğurluq edən şəxs yaxalandı



Binəqədidə avtomobildən oğurluq edən şəxs yaxalanıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, dekabrın 28-nə keçən gecə rayon ərazisində “Khazar” markalı avtomobildən pul, sənədlər və bank kartı oğurlamaqda şübhəli bilinən İmişli rayon sakini, əvvəllər məhkum olunmuş Q.Kərimov Binəqədi Rayon Polis İdarəsinin 5-ci polis bölməsi və Əlahiddə Çevik Polis Alayı əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb. Faktla bağlı rayon polis idarəsində araşdırmalar aparılır.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**